www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 fevral 2019-cu il Bazar ertəsi № 44 (7214) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda gənc ana 2 azyaşlı övladı ilə itkin düşdü

yazısı səh.14-də

**Gündəm**

### Sabah Bakıda Xocalı yürüşü olacaq




Soyqırımın 27-ci ildönümü ilə bağlı yürüş də daxil, digər kütləvi ziyarətlər təşkil ediləcək...

yazısı səh.3-də

### Bahalaşma Novruzdan bir ay öncə başladı, dükan-bazarlarda son qiymətlər

yazısı səh.3-də

### Moskva Qarabağ "düyün"ünə yeni "düyün" vurur

yazısı səh.11-də

### Qərbə "atan" Paşinyanı hansı cəza gözləyir?

yazısı səh.9-da

### Azərbaycanda yeni xəbər agentliyi ONA fəaliyyətə başladı

yazısı səh.2-də

*Etibar Məmmədov:*

### "Əli İnsanov azadlığa buraxılmalıdır"

yazısı səh.9-da

### Rusiya üçün cəhənnəm sanksiyaları gəlir: Azərbaycana təsiri

yazısı səh.12-də

### İş adamının həbsdən xilas planı: "500 min təklif elədi ki..."

yazısı səh.4-də

### Paytaxtda qəbir yerinin və başdaşının qiyməti qalxıb - reportaj

yazısı səh.10-da

### Azərbaycanda qohum evliliyi qadağan edilə bilər

yazısı səh.14-də

### Az stress, bol məhsuldarlıq - dünya 4 günlük iş rejiminə keçir, bəs Azərbaycan?

yazısı səh.15-də

# ABŞ BÖLGƏDƏ ÜZÜNÜ AZƏRBAYCANA ÇEVİRİR - MÜHÜM GƏLİŞMƏ

"Qərbyönlü" Paşinyan Rusiyanı tutdu, Gürcüstan ümidləri doğrultmur, seçim Bakı üzərinə fokuslanır; **ekspert:** "ABŞ-ın bölgədə üç ölkə arasında Azərbaycana verdiyi önəm artıq Gürcüstana verdiyindən də çoxdur"; Qarabağ üçün şans "pəncərəsi" açıla bilərmi?




yazısı səh.8-də

# İran prezidentinin Azərbaycan barədə dediklərinə Bakıdan sərt reaksiya

**Tarixçi-deputat Fəzail Ağamalı:** "Fars rejimi Azərbaycan dövlətinin qüdrətini gec-tez etiraf etməli olacaq..."

yazısı səh.5-də



Fərəc Quliyev

### Azərbaycanlı deputat bələdiyyələri Türkiyə modelinə keçirməyi təklif edir

yazısı səh.6-da



*Tofiq Zülfüqarov:*

### "Əgər bu ssenari təkrarlansa, dəhşətli vəziyyət yaranar"

yazısı səh.7-də



### Eldar Mahmudovun "unudulması"nın mübhəmləri

yazısı səh.6-da

# “Lavrovun Qarabağ planı Bakı və Yerevanda rədd edilib” - amerikalı keçmiş həmsədr

**“Uzun zamandan bəri ilk dəfə Ermənistanın lideri Dağlıq Qarabağdan deyil, buna görə də, o, çox ehtiyatlı olmalı, Qarabağ münaqişəsinin tənzimlənməsi prosesində radikal addımlara getməməlidir”. Virtualaz.org xəbər verir ki, bunu “Amerikanın səsi” radiosuna müsahibəsində danışıqlar prosesi ətrafında vəziyyəti şərh edərkən ATƏT-in Minsk qrupunun ABŞ tərəfindən keçmiş həmsədri, səfir Riçard Hoqland deyib.**



Səfir əminliyini bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyan üçün Qarabağ münaqişəsi çox mürəkkəb problemdir. “Qarabağ münaqişəsinin tənzimlənməsində ən yaxşı strategiya kiçik addımlarla irəliləməkdir”, - diplomat qeyd edib. O vurğulayb ki, dövlət xidmətini tərk edib və hazırda şəxsi mövqeyini bildirir.

Bu yaxınlarda baş vermiş hadisələr, o cümlədən tərəflər arasında davam edən dialoq və təmas xəttində qarşıdurmaların kəskin şəkildə azalması Hoqlandda nikbinlik yaratsa da, o, ciddi irəliləyişləri gözləməyi məsləhət görməyib. Keçmiş diplomat qeyd edib ki, Lavrov planını heç bir tərəf bəyənməyib. Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə Sergey Lavrovun təklif etdiyi sənəd bəzi düzəlişlərlə Madrid prinsipləri əsasında qurulub.



## Nikita Mixalkov: “Ermənilərin Qarabağa köçürülməsi ilə bağlı filmin çəkilişləri təxirə salınıb”

**Ermənilərin İrandan Qarabağa köçürülməsi ilə bağlı filmin çəkilişləri təxirə salınıb. Bu barədə ONA-nın Moskva müxbirinə filmin rejissoru və ssenari müəllifi, Rusiya Kinematoqrafçılar İttifaqının sədri, tanınmış kinorejissor Nikita Mixalkov bildirib.**

Onun sözlərinə görə, rus diplomatı, şair və dramaturq Aleksandr Qriboyedovunm həyatı haqqında olan “Qriboyedovun həyatı və ölümü” adlı çoxseriyalı filmin ssenarisi tam hazırdır, lakin çəkilişlər təxirə salınıb.

Mixalkov buna səbəb kimi Yaxın Şərqdəki, xüsusilə İran və Türkiyədə sabitliyin olmamasını göstərib: “Həmin regionda vəziyyət sabit deyil. Ona görə də film çəkilişi üçün 500 nəfərlik qrupu ora aparmaq çox risklidir. Azərbaycandakı çəkilişlərlə bağlı problemimiz yoxdur. Amma İran və Türkiyədə sabitliyin olmaması məni narahat edir. Filmin çəkilişlərini dayandırmaq olmaz. Əgər hansısa fors-major vəziyyət səbəbindən çəkilişlər dayansa, bu, böyük miqdarda pul itkisi və tapşırığın yerinə yetirilməməsi deməkdir. Ona görə də həmin regionda vəziyyətin sakitləşməsini gözləyirik. Hələlik çəkilişləri təxirə salmışıq”.



## “Rusiya, Türkiyə və İran Suriyada birgə hərbi əməliyyatlar planlaşdırmır” - Lavrov

**“Suriyada Rusiya, Türkiyə və İranın birgə hərbi əməliyyatları planlaşdırılmır”. “Report” RİA “Novosti”yə istinadən xəbər verir ki, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib.**

“Suriya ərazisində Rusiya, Türkiyə və İranın birgə hərbi əməliyyatlarını planlaşdırmırıq”, - deyə Lavrov “Vyetnam televiziyası” və Çinin “STV” və “Feniks” telekanallarına Çin və Vyetnama səfəri öncəsi müsahibəsi zamanı söyləyib. Nazir bildirib ki, Rusiya və İran Suriya ərazisində ərəb respublikası hökumətinin qanuni dəvəti əsasında hərəkət edir göstərir.

“Türkiyə öz təhlükəsizliyi üçün yaranan təhdidlərlə bağlı narahatlıq ifadə edir, Suriya hökuməti isə Türkiyə hərbçilərinin onun ərazisinə daxil olmasına etiraz edir. Bununla belə, o Astana formatının yaradılmasını dəstəklədi. Bu proqmatik qərardır və heç kimin müyəssər olmadığını - Suriya ərazilərinin əksər hissəsində real atəşkəsi və hökumətlə silahlı müxalifət arasında birbaşa dialoqa başlamağı təmin etməyə nail olmaq imkanı verə bilər”, - deyə nazir bildirib

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
**Telefon: (012) 434 93 01**

## Bu gün Bakıda 9° isti olacaq

**Bu gün ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Musavat.com-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında buludlu hava şəraiti üstünlük təşkil edəcək. Gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 3-5° isti, gündüz 7-9° isti, Bakıda gecə 3-5° isti, gündüz 7-9° isti təşkil edəcək. Atmosfer təzyiqi normadan yüksək 768 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 80-90 %, gündüz 60-70 % olacaq.

Azərbaycanın rayonlarında gün ərzində bəzi yerlərdə yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Böyük Qafqazın bəzi yerlərində intensiv olacağı ehtimalı var. Gecə və səhər ayr-ayrı yerlərdə duman. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 0-5° isti, gündüz 8-13° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-7° isti təşkil edəcək.



## Komaya düşən jurnalist dünyasını dəyişdi

**Komaya düşən jurnalist, Mediapress İnformasiya Agentliyinin baş redaktoru Natiq Qocaman dünən dünyasını dəyişib. Musavat.com-un verdiyi xəbərə görə, bu barədə sosial şəbəkələrdə məlumat yayılıb. Məlumata görə, mərhum dünən dəfn olunmalı idi.**

Qeyd edək ki, N.Qocaman fevralın 1-də axşam saatlarında insult diaqnozu ilə əvvəlcə 1 saylı Kliniki Tibbi Mərkəzə (Semaşko), oradan da Mərkəzi Klinik Xəstəxanasına yerləşdirilmişdi. Mərkəzi Klinik Xəstəxanada o, beyin əməliyyatı keçirmişdi. Natiq Qocamanın beyin kötüyünə, tam mərkəzə maye yığılmışdı.

Məlumat üçün onu da bildirək ki, Natiq Qocaman uzun müddət “Oxu məni” qəzetinin təsisçisi və baş redaktoru vəzifəsində də çalışıb.

Allah rəhmət eləsin!

ona
onlayn xəbər agentliyi

## Azərbaycanda yeni xəbər agentliyi fəaliyyətə başladı

**Azərbaycanda yeni xəbər agentliyi fəaliyyətə başlayıb. Onlayn Xəbər Agentliyinin (Online News Agency - ONA) yaradılmasında əsas məqsəd ölkənin media məkanındakı boşluğu doldurmaq, Azərbaycanda və dünyada baş verən ən mühüm siyasi, iqtisadi və digər yenilikləri işıqlandırmaqdır.**

Digər məqsəd aparıcı transmilli informasiya agentlikləri ilə sıx münasibətlər qurmaq, qarşılıqlı əməkdaşlıq çərçivəsində Azərbaycan həqiqətlərini, respublikanın siyasi və iqtisadi həyatını əks etdirən dolğun məlumatları, ölkəmizin Dağlıq Qarabağ münaqişəsinin həllində tutduğu haqlı mövqeni dünyaya çatdırmaqdır.

Agentlikdən Musavat.com-a verilən xəbərə görə, əsas iş prinsipi dəqiqlik, operativlik, tərəfsizlik olan ONA xüsusi bülletenlər və onlayn rejimdə Azərbaycan, rus, ingilis, ərəb, fransız və erməni dillərində xəbərlər yayımlayacaq.

İnformasiya bloklarında Azərbaycanın siyasi, iqtisadi, sosial, mədəni və idman həyatına dair məlumatlarla yanaşı, regionda və dünyada baş verən hadisələr barədə xəbərlər, məqalələr, müsahibələr, ekspert rəyləri yer alır.

ONA-nın foto və video, iqtisadi və siyasi mövzularda analitika xidmətləri də var. Agentliyin Azərbaycanın bütün bölgələrində, ABŞ, İngiltərə, Türkiyə, Rusiya, Gürcüstan və İranda ofisləri fəaliyyət göstərir.

Agentliyin internet ünvanı belədir: www.ona.az

## Şamaxıda ağır qəza: yaralılar var

**Şamaxı rayonunda ağır yol-nəqliyyat hadisəsi baş verib. Report-un Şirvan bürosunun məlumatına görə, hadisə Şamaxı-Padarçöl yolunun 45-ci kilometrliyində qeydə alınıb. Belə ki, Padarçöl istiqamətində hərəkətdə olan “Nissan” markalı minik maşını idarəetməni itirərək yoldan çıxıb və avtomobil aşıb.**

Hadisə yerinə hüquq-mühafizə orqanlarının əməkdaşları və Təcili Tibbi Yardım Stansiyasının həkim briqadası cəlb olunub. Hadisə zamanı ağır bədən xəsarətləri alan bir qadın və bir kişi təcili yardım maşını ilə Şamaxı Rayon Mərkəzi Xəstəxansına çatdırılıb. Şəxsiyyətləri hələlik məlum olmayan qadın və kişinin vəziyyətinin ağır olduğu bildirilir. Faktla bağlı araşdırma aparılır.

## Abunə daha sərfəlidir - “Yeni Müsavat” abunə kampaniyasını davam etdirir




“Yeni Müsavat” qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa “Qaya” Mətbuat Yayımı ilə də abunə yazıla bilərsiniz.

**Əlaqə üçün telefon: 012-565-67-13, 012-564-48-96**

YENİ MÜSAVAT
N 44 (7214) 25 fevral 2019

# Bahalaşma Novruzdan bir ay öncə başladı, dükan-bazarda son qiymətlər

## Ekspertlər saxlanması mümkün olan bayram ərzaqlarını indidən almağı tövsiyə edirlər...

**Xalqımızın qədim, milli bayramlarından olan Novruza bir aydan da az zaman qalır. Bir tərəfdən mövsümi amillərlə əlaqədar, digər tərəfdən də bayram yaxınlaşdığı üçün əhalinin ərzağa və mer-meyvəyə tələbatı artır. Bəs mövcud durum bazara, qiymətlərə necə təsir göstərir? İnsanlar bayram bazarlığını hansı ərəfədə etsə, daha çox qənaət etmiş olar?**

Bunu öyrənmək üçün "Yeni Müsavat"ın müxbiri paytaxtın "8-ci kilometr" bazarına baş çəkib.

Öncə onu qeyd edək ki, bazarda hər zaman olduğu kimi insan sıxlığı müşahidə olunur. Burada həm topdan, həm də pərakəndə satış həyata keçirilməsi, eləcə də qiymətlərin digər bazarlara nisbətən bir qədər ucuz olması səbəbindən insanlar daha çox axın edirlər. Qiymətlərlə bağlı isə birmənalı fikir bildirmək mümkün deyil. Bəzi məhsullarda bahalaşma, bəzilərində ucuzlaşma müşahidə edilir.

İlk olaraq bayram süfrələrinin bəzəyi olan qoz-fındıq və quru meyvələrdən başlayaq. Qərzəkli Zaqatala qozunun kiloqramı 5 manata, fındığın kiloqramı 6 manata, şabalıd 6 manata , qoz ləpəsi keyfiyyətindən asılı olaraq 10-18 manat arasında, fındıq 14-19 manata, kişmişin kiloqramı 8-15 manat, xurma 4-10 manat arasında , ərik, alça , gavalı qurusu ölçüsünə və keyfiyyətinə görə, 8-12 manat arasında dəyişir. Ən bahalı quru meyvə isə badam və Antep fıstığıdır. Badam ləpəsinin kiloqramı 14-25 manata, Antep fıstığı isə 22-26 manata satılır. Təcrübəyə əsaslanıb deyə bilərik ki, bu qiymətlər bayram günləri ilə müqayisədə kifayət qədər ucuzdur, hər məhsulun bayram öncəsi ən azı 3-4 manat bahalaşdığını müşahidə edəcəyik.

Bayram süfrəsinin vazkeçilməz yeməyini aş, onun isə əsasını düyü təşkil edir. Bazarda müxtəlif növ düyülərə rast gəlmək olar. "Sultan" , "Besta", "Basmati" düyülərinin kiloqramı 3 manata, İran və Astara düyüsü isə 4 manata satılır. Piştaxtadakı digər məhsullara nəzər salsaq, noxudun kiloqramı 2-3 manat arasında, müxtəlif növ lobyaların kiloqramı isə 4-5 manat arasında dəyişir.

Meyvələrdən ən ucuzu hər zaman olduğu kimi almadır. Belə ki, bazarda onun kiloqramını 50-70 qəpiyə də almaq tapmaq mümkündür. Lakin qiymətlər əsasən 1 manatdan başlayır, 1.50-2 manata kimi yüksəlir. Qızıləhmədi alma isə 3-4 manata arasında təklif edilir.

Portağalın kiloqramı 1.50-2 manat, narıngi 1.5 manat, kivi 2 manat, banan 2.80 manat, ananasın kiloqramı 5 manat, armud 2.50, nar 1.50 -3 manat arasında, üzüm 2.50 manat, limonun 4-5 ədədi 1 manata satılır.

Tərəvəzlərdən ən baha olanı pomidor və xiyardır. Satıcıların sözlərinə görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə bu məhsullar indi daha ucuzdur. Pomidorun kiloqramı 1.50 - 3 manat arasında dəyişir. Bazarı məhsulla təmin edən əsasən Zirə istixanalarıdır, həmçinin Maştağadan da xeyli miqdarda məhsul bazara gətirilir. Xiyarın kiloqramı da 2-5 manat arasında dəyişir. Badımcanın kiloqramı 1.50, göbələk 2-3 manat, kök 6080 qəpik, kartof 60 qəpik-1 manat, soğan 80 qəpik, kələmin kiloqramı 50 qəpik, ağ turp 60 qəpik, göyərtinin 5-6 ədədi 1 manata satılır. Qeyd edək ki, artıq Novruz aksesuarları da satışa çıxarılıb. Bayramda 1 ədədi 1 manata satılan şamlar indi 50 qəpikdir. Məlum olduğu kimi, bayram ərəfəsində bahalaşma qaçılmaz olacaq.

Bu baxımdan əhaliyə tövsiyə olunur ki, bəzi vacib məhsulları indidən tədarük etsinlər. Xüsusən də , qoz , fındıq və digər quru meyvələr, ləpələr bayram ərəfəsində kəskin bahalaşacaq.

Marketlərdə də müəyyən qədər qiymət artımı var, lakin artım 5-20 qəpik arasında dəyişir. Bazarda yumurtanın qiyməti 14 qəpikdir. Kərə yağlarında hər hansı dəyişiklik yoxdur. "West gold" kərə yağı 15, 69manat, "Golden Graun" 14,95 manat, "Gerda" yağı isə 17.90 manata satılır. 1 litr "Final" qarğıdalı yağı 3.86 manata , "Final" günəbaxan isə 2.55 manata satılır.









İqtisadçı ekspert Natiq Cəfərli də "Yeni Müsavat"a açıqlamasında vurğuladı ki, bayram bazarlığını indidən etmək daha sərfəli olar: "Azərbaycanda belə bir mənfi ənənə formalaşıb ki, bayrama doğru yaxınlaşdıqda qiymət artımları da daha çox hiss olunacaq. Sonuncu çərşənbə və bayram ərəfəsində qiymətlərdə daha çox yüksəlmə müşahidə oluna bilər. Çünki həmin dövrdə tələbatın artmasın uyğun olaraq, qiymətlərin də yüksəlməsi hiss olunacaq. Mart ayının əvvəllərindən başlayaraq bayramqabağı qiymət artımına start verilə bilər. Əsasən də bazarlarda yerli kənd təsərrüfatı məhsullarının azalması, xaricdən gələn məhsulların daha çox üstünlük təşkil etməsi bahalaşmaya səbəb olacaq. Novruz süfrəsində istifadə olunan ənənəvi məhsullarda da qiymət artımı müşahidə oluna bilər. Əgər gec xarab olan, ən azı 1 ay saxlamaq imkanı olan məhsullar alınacaqsa, bu bazarlığı indidən etmək daha yaxşı olar. Gələn aydan başlayaraq hər çərşənbədən-çərşənbəyə qiymətlərin daha çox artdığını görə bilərik. Bu neqativ bir ənənədir ki, hər il həm Yeni il, Həm də Novruz bayramı ərəfəsində bahalaşma gedir".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Sabah Bakıda Xocalı yürüşü olacaq

## Soyqırımın 27-ci ildönümü ilə bağlı yürüş də daxil, digər kütləvi ziyarətlər olacaq...




**Ermənilərin azərbaycanlılara qarşı törətdiyi Xocalı soyqırımının 27 ili tamam olur. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının da iştirakı ilə törədilən soyqırımla əlaqədar hər il olduğu kimi bu il də Bakıda Xocalı şəhidlərinin xatirəsinə ucaldılan "Ana harayı" abidəsinə ziyarətlər təşkil olunacaq.**

Azərbaycan hökuməti Xocalı soyqırımının 27 illiyində yüz minlərlə insanın iştirakı ilə izdihamlı yürüş keçirməyi planlaşdırır. Bununla bağlı ciddi hazırlıqlar gedir. Siyasi partiyaların bu yürüşdə iştirak edib-etməyəcəkləri və təşkil edəcəkləri ziyarətlərlə bağlı fikirlərini aldıq.

KXCP İdarə Heyətinin üzvü Xəzər Teyyublu Xocalı qurbanlarını ziyarət edəcəklərini bildirdi: "Partiyamız Xocalı soyqırımı ilə əlaqədar ənənəvi olaraq hər il olduğu kimi ayın 26-da "Ana fəryadı" abidəsini ziyarət edəcək. Partiya rəhbərliyi və üzvlərimiz həmin gün saat 15:00-da Ali Məhkəmənin yerləşdiyi binanın yanından toparlanaraq hərəkət edəcək".

AĞ Partiya tək ziyarət düşünmür. Bu barədə partiyanın sədr müavini Rüfət Hacıbəyli məlumat verdi: "AĞ Partiya Qarabağ Komitəsində və AXH-də təmsil olunduğu üçün bu təşkilatların ziyarət saatı üst-üstə düşməyəcəyi təqdirdə, Xocalı abidəsini hər iki qurumla birgə ziyarət edəcək. AĞ Partiya olaraq ümummilli dəyərlərimizdə müxalifət-iqtidar məsələsinin tərəfdarı deyilik. Hakimiyyətdən bu yürüş barədə bizə hər hansı bir təklif, dəvət gəlməyib. Gələrsə bunu dəyərləndirəcəyik".

Ümid Partiyasının sədr müavini Tamilla Qulami soyqırımla bağlı tədbir keçirəcəklərini söylədi: "Hər il olduğu kimi, bu il də 26 fevral tarixində partiyamızda Xocalı Soyqırımına həsr olunmuş tədbirimiz olacaq, faciə ilə bağlı dəyirmi masa keçirəcəyik. Azərbaycanın qanlı günlərinin qurbanı olan insanların, şəhidlərin məzarını, onlara həsr olunmuş yerləri ziyarətə həmin gün iqtidarlı, müxalifətli - bütün xalq ziyarətə axışır. Belə günlər kimlər üçünsə göstəri günü olmamalıdır deyə düşünürəm. Və təbii ki, həmçinin bu dəhşətli faciə qurbanlarının xatirəsinə həsr olunmuş "Ana fəryadı" abidəsini biz də ziyarət edəcəyik."

VHP Ali Məclisinin katibi Asif Şəkərli bunları dedi: "Xocalı faciəsinin 27-ci ildönümü ilə bağlı partiyamızın üzvləri və tərəfdarları Xocalı şəhidlərinin xatirəsinə ucaldılmış "Ana Harayı" abidəsini ziyarət edəcəklər. Həmçinin Gəncədə VHP Xocalı rayon təşkilatı da anım tədbiri keçirəcək, Gəncə şəhərində xocalı şəhidləri üçün ucaldılan abidəni ziyarət edəcəklər".

Məlumat üçün bildirək ki, Xocalı soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Hazırda Xocali soyqırımının tanınması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Azərbaycandan başqa, Xocalını tam səviyyədə qətliam kimi Pakistan və Sudan tanıyır. Faciəni parlament səviyyəsində qətliam kimi Meksika, Kolumbiya, Çexiya, Bosniya və Herseqovina, Cibuti, Peru, Honduras, Panama və Şotlandiya tanıyır. İndiyədək ABŞ-ın 22 ştatı Xocalını qətliam kimi tanıyan sənəd qəbul edib. Bu hadisə Azərbaycanda "Xocalı soyqırımı" və "Xocalı faciəsi" kimi, digər ölkələrdə isə "Xocalı qətliamı" kimi anılır.

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 44 (7214) 25 fevral 2019

**İrandan Azərbaycana narkotik gətirməkdə ittiham edilən şəxslərin məhkəməsi keçirilib. Məhkəmədə ilginc məqamlar üzə çıxıb. Həbs edilənlərdən biri günahsız olduğunu deyir. O da məlum olub ki, həbs edilənlərdən biri iş adamıdır və adının hallanmaması üçün obyekt və külli miqdrada pul təklifi edibmiş.**

# İş adamının həbsdən xilas planı: "500 min təklif elədi ki..."

## Narkotik qaçalmalçılığında ittiham edilənlərin məhkəməsində ilginc faktlar

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində İrandan Azərbaycana narkotik gətirməkdə ittiham edilən Nuri Rauf Məlikşah oğlu və İsgəndərov Arif Zərqulu oğlunun cinayət işi üzrə məhkəmə iclası keçirilib. Hakim Azər Paşayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərdən Rauf Nuri ifadə verib.

Rauf Nuri deyib ki, İrana dəfələrlə səfər edib. O, həm müalicə, həm də ticarət məqsədi ilə İrana getdiyini söyləyib. Qeyd edib ki, sonuncu səfərində illərdir tanıdığı Hüseyn adlı şəxs ona içərisində pay olan sellofan verib: Şəffaf sellofan idi. İçində qaymaq və şirniyyat var idi. Dedi ki, yolda yeyərsiniz. Mən də oteldə Arifin qaldığı otağa gəldim. Sellofanı otağa qoyanda Arifə içərisində şirniyyat olduğunu dedim. O da istəmədiyini bildirdi. Axşam Azərbaycana qayıdacaqdıq. Arif avtobusla gedəcəyini deyirdi. Mən də ona təyyarəyə bilet aldım. Bakıya gələndə mən öndə idim. Çölə çıxanda gördüm ki, Arif yoxdu. Ona zəng edəndə dedi ki, saxlanılıb. Mən də oradan qaçdım".

Suallara cavab verən Rauf Nuri selofanın içərisində narkotik olmasından xəbərsiz olduğunu deyib. Qeyd edib ki, həmin narkotikin nə məqsədlə ona verilməsini də bilmir. Rauf Nuri hava limanında yol yoldaşı olan Arif İsgəndərovu qoyub qaçması ilə bağlı suala belə cavab verib: "Mən bildim ki, Arifi tutublar. Əgər içəri getsə idim, məni də tutacaqdılar. Həmin sellofandan Arifin xəbəri yoxdur. Mən gedib bunu desəydim, yenə də ikimizi tutacaqdılar. Mən indi də deyirəm ki, Arifin bu işdən xəbəri yoxdur. Həmin gün gedib deməmdim, amma istintaqda dedim ki, Arif günahsızdır. Nə dəyişdi? Arifi buraxdılar?"

Məhkəmədə daha sonra Arif İsgəndərov ifadə verib. Əvvəlcə Rauf Nuridən daha əvvəl etdiyi hərəkətlərə görə narazı olduğunu deyən İsgəndərov qeyd edib ki, Rauf Nurinin indi məhkəmədə dedikləri doğrudur. Arif İsgəndərov İrana müayinə məqsədi ilə getdiyini, buna görə də yoldaşlıq üçün Rauf Nuriyə müraciət etdiyini qeyd edib: "Rauf yoldaşı ilə gedirdi. Mən də onlara qoşulub getdim. İrandan qayıdanda biz bir oteldə idik. Çıxmağımıza az qalmışdı ki, Rauf əlində bir selofan gətirdi. Mən öz otağımda idim. Mən avtobusla gedəcəkdim, onlar isə təyyarə ilə. Mən gecə yola çıxmalı idi, Raufgil isə günorta. Amma getmədilər. Raufdan soruşanda dedi ki, təyyarəyə gecikiblər deyə getməyiblər. O, bileti axşama dəyişdirdiyini dedi. Mənim də onlarla getməyimi istədi. Razılaşdıq və yola düşdük. Mənim heç bir əşyam, çatam yox idi. Bir insan kimi ona dedim ki, yüklərinə kömək edim. Rauf da həmin selofanı mənə verdi. Bakıya çatanda təyyarədən Raufgil öndə getdi. Mən də onlardan arxada idim. Hava limanında məndən selofanda nə olduğunu soruşdular. Şirniyyat olduğunu, amma çantanın sahibinin mən olmadığımı dedim. Dedim ki, Raufundur. Amma axtardıq, Raufu tapa bilmədik. Baxanda oradan narkotik maddə çıxdı. Mən Raufa zəng elədim. Tutulmuşam deyəndə telefonu söndürdü".



Arif İsgəndərov günhasız olaraq 11 aydır həbsxanada olduğunu deyib. Göz yaşlarını saxlaya bilməyən İsgəndərov məhkəmə zalında olan oğlunu göstərərək deyib: "Əgər dediklərimdə bircə söz belə yalandırsa, övladımı görmək mənə qismət olmasın".

Məhkəmə iclasında Arif İsgəndərovun xanımı, Gülnar İsgəndərova şahid qismində ifadə verib. Gülnar İsgəndərovanın dedikləri bir çox ilginc məqamların üstünü açıb. O, hadisə baş verən gün bildiklərini belə nəql edib: "Axşam tərəfi Arif zəng elədi ki, onu saxlayıblar. Amma günahsız olduğunu, çantanın özünü yox, Raufun olduğunu dedi. Bildirdi ki, Rauf gəlib hər şeyi etiraf edəcək və onu buraxacaqlar. Biz də gözlədik. Gecə saatlarında qapımız döyüldü. Açanda gördüm ki, bir nəfər eynəkli şəxs və yanında sürücüsü gəlib. Bizimlə vacib məsələni danışmaq istədiyini dedi. Adının Rauf olduğunu bildirdi. Biz də onu dinlədik. Dedi ki, bu işdə adı çəkilməsin. Nə kömək lazım olsa, edəcəyini dedi. Söylədi ki, bu işdə Arif də, özü də günahsızdır. Mən də nə edəcəyimi bilmirdim. Fikirləşdim ki, daha işdir olub, necə olsa, bunu yoluna qoymaq lazımdır. Ondan sonra bir neçə gündə Rauf bizə zəng edirdi, maraqlanırdı. Deyirdi ki, artıq hər işi həll edib, mətbuat işini də həll edib və Arifi efirə çıxarmayacaqlar. Bir neçə günə də bu məsələ tam həll olacaq və Arifi buraxacaqlar. Həmin gün də bizə 100 dollar verimişdi. Amma iki gün sonra Arifi televizorda narkobaron kimi göstərdilər. Onda elə bil ki, başıma daş düşdü. Bildim ki, işi Arifin boynuna yıxdılar. Raufun evinə getdim, anasını, ailəsini gördüm. Dedilər, xahiş elədilər ki, işi həll edəcəklər. Mən də çarəsiz qalıb gözlədim. Çünki ilk dəfə idi belə halla rastlaşırdım və qohum-əqrəbadan da utanırdım. İki oğlum var və onların üzünə baxa bilmirdim. Bir neçə gün də gözlədim. Rauf deyirdi ki, nə qədər istəsə pul verəcək, 500 min təklif edirdi, deyirdi ki, obyektləri var. Hansına barmağımı qoysam, bizə verəcək".

Gülnara İsgəndərova deyib ki, bir neçə gün də gözləyib, amma həyat yoldaşının azadlığa buraxılmadığını görüb və bundan sonra şikayət etmək qərarına gəlib: "Artıq gördüm ki, iş belə getməyəcək. Hüquq-mühafizə orqanlarına müraciət elədim. Dedim ki, Rauf edib və bizə susmaq üçün pul təklif edir. Mən Raufa zəng edib 3 min manat istədim. Dedim ki, Arif həbsdədir və onun yanına getmək istəyirəm. O da pulu götürüb bizə gəldi. Pulu verəndə onu tutdular. İkimizi də idarəyə gətirdilər. Orada Raufu kortej, adamları qarşıladı. Mən isə yetim kimi kənarda qaldım. Fikirləşdim ki, Arifi buraxacaqlar. Amma yenə də buraxmadılar. Mənim iki oğlum var. Biri əsgər gedir. Hörmətli məhkəmə, sizdən xahiş edirəm ki, bizi, ailəmizi bədbəxtlikdən qurtarın".

Daha sonra Gülnarə isgəndərova üzünü Rauf Nuriyə tutaraq deyib: "Rauf, dediklərimdə bircə cümlə səhv varsa, söylə. Bizi, ailəmizi bədbəxt eləmə".

Rauf Nuri deyilənlərin yalan olmadığını deyib. Sadəcə, qeyd edib ki, 500 min verməyib. Şahid Gülnarə İsgəndərova isə bu fikrə düzəliş edib: "Mən 500 min vermisən demədim. Dedim ki, 500 min təklif edib".

Məhkəmə iclası martın 1-də davam etdiriləcək.

Xatırladaq ki, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşları külli miqdarda narkotik vasitənin gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirilməsinin qarşısının alınması ilə bağlı məlumat yaymışdı. Gömrük Komitəsindən verilən məlumata görə, Tehran-Bakı aviareysilə gələn Azərbaycan vətəndaşı İsgəndərov Arif Zərqulu oğlu gömrük nəzarətindən keçərkən onun əl yükü rentgen aparatında yoxlanılıb. Bu zaman monitorda əks olunan təsvirlər gömrük nəzarətindən gizlədilmiş malların olması barədə əsaslı şübhələr yaradıb.

Bu səbəbdən yükün içərisindəki ərzaq mallarının arasında olan ağzı yapışqanla bağlı 3 ədəd qaymaq və 1 ədəd pendir qutularına vizual baxış keçirilib. Nəticədə, qutuların hər birində kəskin iyə malik, qəhvəyi rəngli, islanmış vəziyyətdə olan narkotik vasitəyə oxşar maddə aşkar edilib. Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin arayışına əsasən, cəmi dörd qutuda aşkar olunan maddələr tiryəkdən kustar üsulla hazırlanmış narkotik vasitə - heroindir və ümumi təmiz çəkisi 1 kq 20 qram təşkil edir. Bu hadisədən 7 gün sonra isə Rauf Nuri saxlanılıb.

❑ **İlkin MURADOV, Musavat.com**



# "Şarik"in məhv etdiyi azərbaycanlı və iki qurbanı

## Rusiyanın danışdığı qəzanın şok təfərrüatı

**Fevralın 23-də Sankt-Peterburq şəhərində ağır yol qəzası baş verib. "BMW X6" səkiyə çıxaraq piyadaları vurub, nəticədə, iki nəfər ölüb və dörd nəfər yaralanıb. Musavat.com fontanka.ru saytına istinadən 30 yaşlı azərbaycanlı Murad Qasımovun törətdiyi dəhşətli qəzanın geniş təfərrüatını əldə edib.**

Məlum olub ki, 2010-cu ildən Sank-Peterburqda yaşayan M.Qasımov Rusiya vətəndaşıdır. Evin yeganə oğlu olan M.Qasımovun atası adi iş adamıdır. Qəzanı törədən Murad isə internetdə dəbli avtomobil nömrələrini satmaqla məşğuldur. Qəzadan sonrakı araşdırmada məlum olub ki, son iki il ərzində Murad yol hərəkəti qaydalarını pozduğuna görə 55 dəfə inzibati məsuliyyətə cəlb edilib. Ötən ilin 14 noyabrında isə onun sürücülük vəsiqəsi alınıbmış.

M.Qasımovun qeydiyyatda olduğu Con Rida küçəsində üçotaqlı mənzildə onun düz 21 qohumu da qeydiyyatdadır. Elə qəza yerinə ilk olaraq onlar da gəliblər. Amma xüsusi gərginlik yaranmayıb. Ağır qəza nəticəsində həlak olanlardan biri 40 yaşlı ABŞ vətəndaşı Todd Kroyeldir. 2015-ci ildən Neva sahilindəki şəhərdə yaşayırmış. Onun Facebook səhifəsindən məlum olub ki, Rusiyanın bir çox vilayətlərində olub, bu ölkəyə xüsusi sevgisi varmış. O, Sankt-Petrburqda frilanser (azad işçi) kimi pul qazanırmış.

İkinci qurban Yevgeniya Korneyenkodur. Onun da 38 yaşı var. "Daha üç nəfər hazırda Marinskiy xəstəxanasındadır, onlardan birinin vəziyyəti çox ağırdır, ən yaxşı halda ömürlük əlil ola bilər", - deyə sayt yazır.

Saytın əməkdaşı qəzanı araşdırarkən hadisə yerində olan polisdən Muradın sərxoş olub-olmamasını soruşub. Polis deyib ki, əvvəl onlar da belə hesab ediblər ki, azərbaycanlı sərxoşdur. Amma sonra məlum olub ki, qəzanı törədən indi Rusiyada çox populyar olan "şarik"dən istifadə edib.

Bildirilir ki, "şarik" deyilən həminin bildiyi doldurulmuş şardır. Amma bu şarı nəfəslə deyil, ozon qazı ilə doldururlar. Bu qazı "iyləmək" indi Rusiya gəncləri arasında çox geniş yayılıb. Onu, məsələn, qəzanın baş verdiyi Sankt-Peterburqda hər tindən qəpik-quruşa almaq mümkündür. Bu qaz ölkədə qanunla qadağan edilməyib və bu səbəbdən də son vaxtlar "şarik"lə bağlı hadisələr artıb. Bu şarikdən istifadə edənlər çox hallarda hərəkətlərinə nəzarət edə bilmirlər. Məsələn, saytın müxbiri bir nəfərin "şarik"dən sonra soyunduğunu müşahidə edib.

Qeyd edək ki, M.Qasımovun ya bu gün, ya da sabah məhkəmə qarşısına çıxarılacağı və həbs ediləcəyi şübhə doğurmur. Rusiya telekanalları azərbaycanlının törətdiyi qəzanı dərhal günün hadisələri sırasına daxil ediblər.

❑ **Orxan, Musavat.com**



# Əbədi cəhalət

Samir SARI

**Deyirlər, ölkəmizin üzünü bütün Rusiyada ağ eləyən ekstrasens Zirəddin Rzayev ucuz metaldan sikkələr düzəldib, üzərinə naxışlar-filan həkk edib və onu mistik qüvvələrin yardımına ehtiyac duyanlara satır. Bizim pulla talisman-sikkənin qiyməti 40 manatdır.**

Yaxşı ticarətdir. Bu yolla qısa müddətdə milyonçu olmaq mümkündür. Çünki ölkəmizdə və regionumuzda olduğu kimi, 300 il monqol-tatar əsarətində qalmış şimal qonşumuzda da duaya, cadu-pitiyə, sehirli suya və sair bu kimi hoqqalara inanan, iman gətirən on milyonlarla adam var. Onlar tökülüşüb Zirəddinin sehirli sikkələrini alsalar (və mühəqqəq, alacaqlar), adam bir ayın içində əlavə milyonlar qazanacaq.

Əlbəttə, biz bununla qürur duya bilərik. Necə olsa da, həmvətənimizdir, soydaşımızdır, bizə ziyanı yoxdur, ən azı, şöhrətini və sərvətini başqa ölkədə qazanıb.

Amma adam bir şeydən qorxur. Bizimkilər bu cür davam eləsə, camaatımızın adı başqa ölkələrdə pis çıxacaq (yəni daha betər ola bilər).

Təsəvvür edin, bu yaxınlarda Rusiyada yaşayan həmvətənlərimiz adi qoyun itini tutublar, zavallı itin gözünə linza qoyub, xaski cinsindən olan köpək kimi müştəriyə satıblar. Xaskinin bir özəlliyi var ki, göyçək itdir, bir gözü mavi, digəri yaşıl olur, bizimkilər də linza vasitəsi ilə iti bu görkəmə salıblar. İndi eşidən-bilən nə deyəcək? Deməyəcəklərmi, bu azərbaycanlılar...

Halbuki, axtarsan, Rusiyada yaşayan iki milyon azərbaycanlının heç iyirmisi it alveri sektorunda çalışmır. Zirəddin də hələlik bir dənədir.

Ancaq ucuz metaldan hazırlanmış sikkəni alıb cibinə qoyan Fedya bir müddətdən sonra görməyəcəkmi ki, bu talismanın gücü yoxdur. Bax, deyirdilər, bunu alanın cibindən pul əskilməz, amma cib boşdur, arvad acıq edib dədəsi evinə gedib, işdə töhmət veriblər, avtomobilini vurub qaçıblar, oğul narkomanlara qoşulub, qız bir aydır evə gəlmir və sair və ilaxır. Bir sürü bədbəxtlik... Belə olanda Fedyanın Zirəddinə inamı azalacaq, deyəcək, zrya ya veril Zryaddinu.

Belə anlaşılır ki, 70-80 il öncə gəlib ölkəmizdə "likbez" ("likvidatsiya bezqtamotnosti" - "savadsızlığın ləğv edilməsi") kursları açan, bisavat kütləyə yazıb-oxumaq öyrədən rusların özlərinə də hazırda "likbez" kursları lazımdır.

Bu qədər kitab oxuyurlar (metroda, tramvayda əllərində eyzən kitab-jurnal olar), bir elə teatra, kinoya, muzeyə gedirlər, nə vaxt baxırsan, telekanallarda uşaqdan-böyüyə hamısı savadlı-savadlı danışır, amma gəlib ekstrasenslərə, cadugərlərə, maqlara, koldunlara və sair bu kimi fırıldaqçılara inanırlar.

Sizi inandırıram ki, Zirəddin öz ölkəmizdə bu qədər sərvət və şöhrət qazana bilməzdi, o biri cadugərlər onun bəxtini, dilini-ağzını, eləcə də bazarını elə bağlayardılar ki, o, yaxşı mənada Bayram Nurlunun biri olardı, amma bu cür hind qurularına, monqol şamanlarına çevrilməzdi.

Belə adamların bu qədər məşhurlaşmasının yeganə səbəbi insan cahilliyidir. Demirəm hamı heç zada inanmayanlardan olsun, amma harda ağır seyid var, onun cəddi haqqı, hər şeyə inanmaq da bir şey deyil.

Arada yolum düşür, qohum-əqrəbanı ocağa, pirə, ziyarətgaha aparıram, orda görürəm, yüzlərlə ziyarətçi var, axın-axın gəlirlər. Sanasan, şəhərin mərkəzindəki supermarketdir, endirib edib və müştərilər gəldikcə gəlir. Durub baxıram, bir söz demirəm, fikirləşirəm ki, bu ziyarət onlara daxili rahatlıq gətirirsə, qoy olsun. Amma bilirəm ki, bu ziyarətin onların tibbi problemlərinə müsbət yöndən təsiri olmayacaq, bura 300 dəfə gəlib-getsə də, bisavad övladı DİM-in imtahanında 300 bal toplaya bilməyəcək, bu ziyarətçilərin heç biri qəfildən, durduğu yerdə 100 min manat qabağa düşməyəcək...

Fəqət, xeyri yoxdur. İnsanın daşa-divara, fövqəlbəşər qüvvələrə, talismanlara inanmasının qarşısını ala biləcək heç bir elm yoxdur. Min il bundan sonra insan oğlu bəlkə də kəhkəşanda başqa bir planet tapacaq, elmi-texniki tərəqqinin gücüylə o planetə köçəcək, amma yenə gedib orada bir gümbəz tapıb başına dolanacaq ki, müqəddəsdir, hər dərdə davadır.

Cəhalət əbədidir, dönməzdir, sarsılmazdır.

# Eldar Mahmudovun "unudulması"nın mübhəmləri

**2015-ci il oktyabrın 17-də tutduğu vəzifədən çıxarılandan sonra Eldar Mahmudov yaxasını istintaqçılardan kənar tutmağı bacarır. Ətrafında aparılan həbslər onun yaxın qohumlarına qədər uzansa da, sabiq nazir bu günə qədər azadlıqdadır.**

2016-cı ili tam olaraq, 2017-ci ilin 10 ayını Eldar Mahmudovu ümumiyyətlə, sorğulayan olmayıb. Vəzifədən çıxarılandan sonrakı 2 ildə toxunulmaz qalması belə bir fikir formalaşmışdı ki, Eldar Mahmudov istintaqa çağırılmayacaq. 2017-ci ilin noyabrında Eldar Mahmudovu ilk dəfə istintaqa çağırdılar və "MTN işi"nin növbəti mərhələsi başladı. Zərərçəkənlər Baş Prokurorluğun Ağır Cinayətlərə dair İstintaq İdarəsinin önünə gedib sabiq nazirin dindirilməsinin yekunlaşmasını gözlədilər, idarədən çıxan Eldar Mahmudovun üzünə düşündüklərini dedilər. 2017-ci ilin sonuna qədər Eldar Mahmudov 4 dəfə dindirildi. Bu cür gəlişmə Eldar Mahmudovun 2018-ci ildə həbs edilə biləcəyi ehtimalını gücləndirmişdi. Bu da əbəs deyildi. Sabiq naziri yaxın çevrəsində olmuş, hazırda həbs həyatı yaşayan generallarla üzləşdirmişdilər.



Eldar Mahmudov

Belə bir üzləşmələrdən biri Eldar Mahmudovla ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyi Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi olmuş Akif Çovdarovla olmuşdu. Üzləşmə mövzusunun Eldar Mahmudovun ölkədən 1 milyard dollar çıxarması olduğu da gələn xəbərlər sırasında idi. Eldar Mahmudova ittihamların ölkədən pul çıxarmaq, pul mənimsəməklə bağlı ola biləcəyi də qeyd olunurdu. Maraqlıdır ki, 2018-ci il Eldar Mahmudov üçün sakit keçib, 2019-cu ilin ötən ay və günləri də sabiq nazirin rahatlığını pozmayıb. Bu günə qədər ictimaiyyətə Eldar Mahmudovun statusu haqda da məlumat verilmir. Onun "MTN işi"ndə şahid və ya təqsirləndirilən şəxs olması da bilinmir.

Sabiq təhlükəsizlik zabiti İlham İsmayıl Eldar Mahmudovun ölkədən 1 milyarddan artıq pul çıxardığını açıqlamışdı: "Rəqəmlər isə milyarddan aşağı deyil. Eldar Mahmudovu da 1 milyard dolları ölkədən çıxardığına görə sorğu-sual edirlər. Eldar Mahmudovun Akif Çovdarovla üzləşdiyi ehtimal olunur. Çovdarov da demir ki, hansısa əməliyyatı həyata keçirərkən Eldar Mahmudov bizə mane olub. O da ölkədən pul çıxarılması barədə danışır".

Yada salaq ki, hazırda Eldar Mahmudovun qudası, Beynəlxalq Bankın sabiq prezidenti Cahangir Hacıyev də məhkəmə qarşısındadır. O da ölkədən milyardlarla pul qaçırmaqda ittiham olunur. C.Hacıyev əvvəlki ittihamlarla 15 il müddətinə azadlıqdan məhrum edilib.

❑ **E.HÜSEYNOV,**

# Bələdiyyələri Türkiyə modelinə keçirmək təklifi

## Fərəc Quliyev: "Biz bu sistemə keçmədən bələdiyyələrə marağı artıra bilməyəcəyik"

**Bu il həm Türkiyədə, həm də Azərbaycanda bələdiyyə seçkiləri keçiriləcək. Artıq qardaş ölkədə ictimaiyyət martın 31-də keçiriləcək bu seçkilərə köklənib, siyasi aktivlik pik həddini yaşayır.**



Fərəc Quliyev

Amma Azərbaycanda bu ilin dekabrında keçiriləcək bələdiyyə seçkiləri ilə bağlı aktivliyin olmaması dəbələdiyyə seçkiləri ilə bağlı həttasa çoxlarının məlumatı belə yoxdur. Cəmiyyətdə heç bir seçki ab-havası, hazırlığı müşahidə olunmur. Sanki bələdiyyələrin insanlara aidiyyəti yoxdur...

Buna səbəb nədir? Bələdiyyələrin əhəmiyyətli quruma çevrilə bilməməsi, yoxsa insanların seçki laqeydliyi?

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev hesab edir ki, Türkiyədən fərqli olaraq Azərbaycanda bələdiyyə seçkiləri ilə bağlı aktivliyin olmaması daha çox zamanla bağlıdır: "Bələdiyyə seçkiləri Türkiyədə yaxınlaşır. Ona görə qardaş ölkədə seçkilərdəki aktivlik gözlənilləndir. Bizdə bələdiyyə seçkilərinə hələ xeyli vaxt var. Bunları nəzərə almaq lazımdır. İndidən cəmiyyətin bələdiyyə seçkilərinə köklənməsi gözlənilən deyil. Digər tərəfdən Türkiyədəki bələdiyyə sistemi Azərbaycandan fərqlidir. Orada bələdiyyələr faktiki olaraq idarəetmədə üstün vəziyyətdədirlər. Türkiyədə faktiki olaraq icra hakimiyyətləri bələdiyyələrin işinə ya yardım edir, ya da nəzarət edir. Azərbaycanda bələdiyyələrin səlahiyyətlərini, fəaliyyətlərini artırmaq lazımdır. Bunu yerli icra nümayəndələrinin səlahiyyətlərinin bir hissəsini alıb bələdiyyələrlə verməklə etmək olar. Əgər seçicilər görsələr ki, seçdikləri adamlar idarəetmədə birmənalı şəkildə cavabdehdirlər, o zaman həm tələb normal olacaq, həm də bələdiyyələr işləməyə məcbur olacaqlar. Türkiyədə məhz bu sistem olduğu üçün bələdiyyələrə maraq yüksəkdir. Orada yerli idarəetmə faktiki olaraq bələdiyyələrdədir. Biz bu sistemə keçmədən bələdiyyələrə marağı artıra bilməyəcəyik. Düzdür, bizdə seçicilərin bələdiyyə seçkilərinə hazırda köklənməməsi, Türkiyədə isə köklənməsi əsasən bağlıdır. Amma bütün hallarda bələdiyyə seçkilərində fəal olmasının çarəsini yalnız bələdiyyələrin statusunun indiki icra strukturlarının statusunun azaldılması və bələdiyyələrə verilməsində görürəm. Bu ən vacib şərtlərdən biridir. Bununla yerlərdə problemlər həll olunacaq, mərkəzə bu problemlərin gəlməsinə ehtiyac qalmayacaq. Yerlərdə bir problem olan kimi insanlar günahı yuxarılarda axtarırlar. Amma bələdiyyələrin yuxarıda dediyim səlahiyyətləri artırılanda belə olmayacaq. Hər kəs öz səlahiyyətləri çərçivəsində olan məsələləri biləcək. Bunları bacarmayanlar seçilməyəcəklər. Biz bu sistemə keçsək, həm bələdiyyələrə maraq artacaq, həm də səlahiyyət bölgüsü və problemlərin lokallaşması olacaq".

Deputat deyir ki, böyük şəhərlərdə şəhər bələdiyyələri seçilməlidir: "Yerlərdə də mütləq bələdiyyələr iş başında olmalıdırlar. Bələdiyyələri əhəmiyyətsiz hala salmaq doğru deyil. Biz mərkəzdən qaçan bir sistem qurmalıyıq. Prezident son çağırışlarında bildirib ki, indiki idarəetmədəki qüsurları dəyişmək lazımdır. Məncə islahatlar paketində buna xüsusi diqqət ayırmaq lazımdır. Həm əhalinin idarəetmədə birbaşa iştirakını nəzərdə tutmalıyıq, həm də səlahiyyət və hüquq bölgüsü yerində olmalıdır. Bunlar olmadan mümkün deyil. İndi bələdiyyələrin adını çəkəndə daha çox torpaq satan qurum kimi ağıla gəlir. Bələdiyyələr bütün iş məsələlərində, yerli infrastrukturun qurulmasında birmənalı şəkildə söz sahibi olmalıdırlar. Əks halda insanların bələdiyyələrə maraqları olmayacaq. Demək olar, hər kəndin bələdiyyəsi var. Minlərlə bələdiyyə mövcuddur. Belə baxanda onlara ancaq dotasiya ayrılır, kömək olunur. Onlar da arxayınlaşıb ciddi fəaliyyət göstərmirlər".

❑ **Cavanşir ABBASL,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT

N 44 (7214) 25 fevral 2019

# “Əgər bu ssenari təkrarlansa, dəhşətli vəziyyət yaranar”

## Tofiq Zülfüqarov: “İstisna etmirəm ki, bizimçün də imkanlar pəncərəsi açılacaq”

**Qərbin sanksiyaları ilə üz-üzə qalan Rusiyanın köhnə imperiyanı bərpa etmək cəhdləri müşahidə olunur. ABŞ-ın Rusiyanı parçalayacağı barədə məlumatların yayıldığı bir ərəfədə Azərbaycanın şimal qonşusunun Belorusla birləşmək cəhdləri dünyaya meydan oxumaq cəhdi kimi də dəyərləndirilə bilər. Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov Azərbaycanın ən ciddi problemlərini də əhatə edən söhbətimiz zamanı “Yeni Müsavat”a maraqlı fikirlər söylədi.**

***- Tofiq bəy, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Rusiya ilə Belarusun birləşməsi mövzusuna münasibət bildirib. Düzdür, o, bu məsələdə həddən çox emosiya və jurnalist uydurmalarının olduğunu deyib. Amma əlavə edib ki, hazırda tərəflərin razılaşdığı bir çox sadə və aydın mövqe mövcuddur. Siz iki slavyan ölkəsinin birləşmə cəhdlərinin perspektivini görürsünüzmü?***

- Yox. Rusiyanın mövqeyi barədə danışmaq çətindir. Amma Belarusun mövqeyi qanunidir. Hər halda, Lukaşenko həm Putinin, həm də öz adından deyib ki, bu məsələdə xalq necə istəsə, elə də olacaq. Yəni təxminən referendum məsələsi ortadadır. Referendumun nəticələri barədə nəsə demək çətindir. Rus xalqını deyə bilmərəm, amma Belarus xalqı müstəqil dövlətdə yaşamağa öyrəşib. Bu, mənim təəssüratımdır, amma hadisələr necə cərəyan edəcək, demək çətindir.

***- SSRİ-nin yaradılması istiqamətində cəhdlər də təqribən belə başlamışdı. Bənzər proses işə salına bilərmi?***

- Çox şeylər bəyan olunur. Amma real addımlar fərqlidir. Bu yaxınlarda məlumat yayılıb ki, Lavrovun qızı böyük imkanlara malik olan şəxsdir, 5 milyarda yaxın pulu var və onun böyük hissəsi ABŞ banklarındadır. Bilmirəm, 5 milyard söhbəti düzdür, ya yox. Amma yuxarıdakı söhbətə qayıtsaq, Sovet ittifaqının bərpasının nə ideoloji, nə iqtisadi, nə də hərbi əsasları var. O vaxt hansısa ideologiya mövcud idi və onun ətrafında millətləri birləşdirib bir dövlət qurdular. Amma indi belə bir ideologiya yoxdur, cəmiyyəti nəyin əsasında birləşdirəcəklər?

***- Rusiyadan uzaqlaşmaq istəyən Ermənistan bu günlərdə ABŞ-dan da şillə aldı. Erməni nazirin Vaşinqton səfərinin təxirə salınmasını nəzərdə tuturam.***

- Açığı, mən bu məlumata bir az şübhə ilə yanaşıram. Suriyaya hərbçi göndərilməsinə görə belə bir addımın atılması məsələsini nəzərdə tuturam. Əgər narazılıq varsa, doğrudan da, səfər təxirə salınırsa, bunun ayrı səbəbləri ola bilər.

***- Ola bilərmi ki, Paşinyan hansısa oyunlarla Rusiyanı Qərbin adamı olmadığına inandırmaq istəyir?***

- Bəzən biz deyirik ki, Ermənistan Rusiyaya yaxınlaşır, Rusiya ona təyyarələr verir. Amma məncə, problem bir az dərindir. Baxın, Köçəryan həbsxanadadır. Putinin şəxsi xahişinə məhəl qoymadan onu həbsdə saxlayırlar. Hətta belə fikirlər səslənir ki, onu ev məhbusluğuna buraxsınlar. Lakin Paşinyanın dediyi kimi, o, indiyədək həbsdə qaldı. Hətta Serj Sərkisyanı da tutmaq istəyirlər. Köçəryan Putinin dostudur. Vaxtilə Köçəryan belə söhbətləri yayırdı. Təbii ki, Köçəryan Rusiya xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən şəxsdir. Saakaşviliyə də vaxtilə məsləhət görülmüşdü ki, Georqadzeni öz vəzifəsində saxlasın. Ancaq onu həbs edəndən sonra Putinlə şəxsi münasibətləri tam pozuldu. İndi də Paşinyan çox yaxşı başa düşür ki, o, Kreml üçün heç vaxt “özününkü” olmayacaq. Bu yolu seçib ki, mənim insanlar arasında dəstəyim var və öz siyasətimi həyata keçirməliyəm. Rusiya-Ermənistan əlaqələri heç də yaxşı deyil.



**“Paşinyan çox yaxşı başa düşür ki, o, heç vaxt Kreml üçün “özününkü” olmayacaq”**

***- Tofiq bəy, həmsədrlərin budəfəki səfəri heç nə ilə diqqət çəkmədi. Deməək olarmı ki, bu il Qarabağla bağlı yenilik gözləməyə dəymez?***

- Yox. Bundan qabaq dediklərimi yada salanda heç də hesab etmirəm ki, Rusiya-Ermənistan əlaqələri xaotik məcrada inkişaf edəcək. Qarabağla bağlı gərginlik var, axırı nə olacaq, bunun üçün gözləmək lazımdır. İstisna etmirəm ki, bizimçün də imkanlar pəncərəsi açılacaq.

***- Yuxarıda Rusiyanın Belarusla birləşmək cəhdlərindən danışdıq. Paralel şəkildə ABŞ-ın Rusiyanı parçalamaqla bağlı planının olmasından bəhs olunur. İddialar var ki, Qərb Rusiyaya SSRİ-nin taleyini yaşadacaq...***

- Mən bu müqayisənin tərəfdarı deyiləm. Ona görə ki, vəziyyət tam başqadır. Yeni indi dünya dəyişib və informasiya baxımından dünya çox fərqlidir. İndi ideologiya da yoxdur ki, bir-birinin qarşısında dursun. Bu baxımdan dərindən baxsaq, görərik ki, indiki konfrontasiyanın nə iqtisadi, nə də ideoloji əsasları var. Hətta bunun əsasının nədən ibarət olduğunu izah etmək də çətindir. Açıq demək lazımdır ki, Rusiyanın Ukraynadakı aqressiv siyasəti üçün - hansı ki, tənqid olunur - şəraiti bu və ya digər şəkildə Qərb yaradıb. Burada mən daha çox siyasi elitanın konfrontasiyaya girməsini görürəm. Bu baxımdan dediyim səbəblərə görə, bu, uzun, davamlı konfrontasiya ola bilməz. Buna əlavə etsək, başqa bir reallığı da görəcəyik: Rusiya hazırda elə siyasi və iqtisadi vəziyyətdə deyil ki, dünya ilə rəqabət aparsın. Rusiyanın iqtisadiyyatı bir çox tellərlə dünya iqtisadiyyatına, Qərb iqtisadiyyatına bağlıdır. Bu baxımdan heç silah lazım deyil, neftin və qazın ixracına embarqo qoyulsa, bu, sonda Rusiyanın çökməsinə gətirib çıxaracaq. Amma mənim fikrimcə, bu, real konfrontasiya deyil.

***- Yeltsin Rusiyası dövründə belə bir yanaşma var idi ki, Qərb imperiya varisini dünyada daha ciddi kataklizmlərin baş verməməsi üçün parçalanma təhlükəsindən xilas etdi. Necə bilirsiniz, indi də ABŞ başda olmaqla dünya gücləri şimal qonşumuzun bütövlüyündə maraqlıdırmı, yoxsa Rusiyanın xırda dövlətlərə parmalanması ilə bağlı masada planlar mövcuddur?***

- Gəlin açıq danışaq, Rusiya Qərb üçün elə böyük təhlükə deyil. İqtisadi baxımdan çox zəif bir ölkədir. Rusiya həm də Qərb iqtisadiyyatı ilə bağlı bir ölkədir. İdeoloji baxımdan görürük ki, Rusiyanın elitası, onların övladları Qərbdə yaşamağa, orada karyera qurmağa çalışırlar və s. Bu baxımdan ideoloji əsaslar da yoxdur. O ki qaldı 90-cı illərlə müqayisəyə, hesab edirəm ki, idarə etmək və əməkdaşlıq etmək üçün, idarəolunan bir müttəfiq kimi, Rusiyanın bütöv bir dövlət olması, ərazi bütövlüyünün qorunub saxlanılması Qərbə daha sərfəlidir. Belə bir ifadə var: bir problem yarananda kimə zəng edim? İndi tutaq ki, Rusiya parçalandı, bir problem yarananda kimə zəng etmək lazım gələcək? Çünki parçalanma halında problemlər həddindən artıq çoxalacaq.

***- Amma bu da var ki, Rusiya öz sərhədlərindən kənarlarda da Qərbə problemlər yaratmaqda davam edir. Məsələn, Suriyada, yaxud Venesuelada... MDB ölkələrində baş verənləri də bura əlavə etsək, böyük siyahı alınar.***

- Mən indiyə qədər məntiqli bir səbəb tapa bilməmişəm ki, nəyə görə Rusiya Suriyadakı proseslərdə iştirak edir. Yeganə maraq ondan ibarətdir ki, “dostlara kömək etmək”. Amma hansısa mərhələdə belə fikirlər səslənir ki, biz Bəşər Əsədin dostu deyilik, Suriya xalqının dostuyuq. Ancaq indiyəcən mən Rusiyanın Suriyadakı maraqlarının nədən ibarət olduğunu görə bilməmişəm. Bəzən deyirlər ki, biz orda terrorla mübarizə aparırıq. Bəzən də məlumatlar sızır ki, müəyyən qruplaşmalar bu və ya digər tərəfdən silahla təchiz olunur, yaxud maliyyələşdirilir.

***- Bu, kifayət qədər geniş mövzudur. Ona görə istərdim ki, daha çox ABŞ-ın Rusiyaya qarşı təzyiqlərindən bəhs edək. Ağ Ev Kremlin ətraf ölkələri nüfuz dairəsinə almaq siyasətinin, yaxud Qərbə qarşı təhdidlərinin qarşılığında hansı addımları ata bilər?***

- Gəlin təhdidlərə baxaq: deyir sənə qaz verməyəcəyəm. Əslində Rusiya öz qazını kiməsə satmaqda maraqlıdır. Satmasa, əhalisini nə ilə dolandıracaq? Ərzağın 40 faizə qədəri xaricdən alınır, Rusiya özünü tam şəkildə təchiz edə bilmir. Yaxud elektronika avadanlıqlarından, geyimdən tutmuş digər mallara qədər xaricdən alınır. Hansı malı deyə bilərsiniz ki, Rusiyada istehsal olunsun və bütün ölkəni qane eləsin? İstehsal olunan malların yarısı xaricdən gələn modellərdir, sadəcə, Rusiyada yığılır. Bu baxımdan indi iqtisadi əlaqələr o qədər sıxdır ki, iqtisadi baxımdan konfrontasiya aparmaq mümkün deyil.

***- ABŞ hazırda Rusiyadan nə istəyir? Bəlkə Qəzzafinin pulları kimi, Rusiyanın da vəsaitlərini ələ keçirmək planı var?***

- Real konfrontasiyaya oxşamır. Çünki real konfrontasiya olsaydı, ilk növbədə İranla bağlı olduğu kimi, Rusiya neftinin alınmasına embarqo qoyulardı. Bununla da bir-iki aya Rusiya dərin böhran içində olacaqdı.

***- Ola bilərmi ki, Rusiyanın İranla bir yerdə hərəkət etməsi Tramp administrasiyasını qəzəbləndirir?***

- Yox, bir yerdə olmaları da bir az şübhəlidir. Bu yaxınlarda məlumat yayılıb ki, Suriyada Rusiya meyilli qüvvələrlə İran meyilli qüvvələr arasında atışma olub.

***- Amma Rusiyanın 5 milyardlıq kredit ayırmasının qarşılığında Tehran Avrasiya Birliyinə qoşulmaq niyyətini sərgiləyir...***

- İran üçün 5 milyard nə puldur ki? İkincisi də, İran Avrasiya Birliyinə qoşulsa, nə olacaq? Elə Ermənistanın Avrasiya Birliyinə qoşulmasına baxın, iqtisadi cəhətdən Ermənistan hansısa irəliləyişə nail oldumu? Yox. Belarus və Rusiya arasında iqtisadi sahədəki daimi gərginlikləri də əlavə edək. Bu baxımdan effektli iqtisadi mexanizm deyil ki, İran ora qoşulsa, dünya dağılacaq. Sizə açıq deyim, bu rəqabət imitasiya xarakteri daşıyır.

***- Ümumiləşdirəndə Rusiyanı SSRİ-nin taleyi gözləmir, eləmi?***

- İndiki mərhələdə, hər halda yaxın gələcək üçün mən belə təhlükəni görmürəm. Qərblə qarşıdurmaya baxanda görürük ki, bu, dərin qarşıdurma deyil. Çünki hərbi baxımdan müqayisə olunan səviyyədədirlər. İkincisi, nüvə silahının olması onu göstərir ki, hərbi qarşıdurma heç cür mümkün deyil. Tutaq ki, filan yerdə sənin tankın 100 dəfə çoxdur. Nə olsun, bir nüvə raketi buraxılsa, tankların izi-tozu qalmayacaq. Bu baxımdan hərbi sahədə konfrontasiyanın reallığına inanmıram. İkincisi, digər mexanizmlər var. Sovet İttifaqının silahları çox idi. Amma digər səbəblərə görə dağıldı. Kim deyə bilər ki, həmin səbəblər indi Rusiyada aktivləşdirilə bilməz? Ola bilər. Amma biz onu görmürük.

***- Yəni SSRİ-nin silahlanma yarışının məntiqi nəticəsi olaraq dağıldığı barədə arqumenti qəbul etmirsiniz?***

- Yox.

***- Amma Rusiyanın indiki sanksiyalarla üz-üzə qaldığı bir dönəmdə silahlanmaya böyük vəsaitləri ayrılır...***

- Böyük vəsaitlər deyil. Təxminən Səudiyyə Ərəbistanı səviyyəsindədir Rusiyanın hərbi xərcləri. Bu baxımdan da böyük fərq yoxdur. Çin isə Qərb üçün real təhlükədir.

***- Deməli, Rusiya sərhədlərinin toxunulmazlığı ABŞ üçün daha məqbul variantdır, eləmi?***

- Hər halda “kimə zəng edim” məsələsi aktualdır. Kimsə bu ərazini idarə etməlidir, ya yox? İdarəetmə, nəzarət məsələsi var.

***- Yəni ABŞ Rusiyaya Yuqoslaviyanın taleyini yaşatmaq istəmir...***

- Əgər bu ssenari Rusiyada təkrarlansa, dəhşətli vəziyyət yaranar. Üstəlik, nüvə silahlarının olması, dini və milli məsələlər dəhşətli fəlakətə gətirib çıxarar. Odur ki, mən belə şeylərə inanmıram.

❑ **Elşad PAŞASOY, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 44 (7214) 23 fevral 2019



# Hörümçəyin gözləri

Zamin HACI
zaminhaci@gmail.com

"Öz qarnımla gəlib çıxdığım aydın və məntiqli nəticə belə oldu, çünki meymunlar qarınları ilə düşünürlər"

***(Frans Kafka, "Akademiya üçün hesabat" hekayəsindən)***

**Cənubi Koreyada təkcə "Samsunq" telefonu qayırmırlar, orda həm də bizim təəccübümüzə baxmayaraq, qədim hörümçəkləri araşdıran alimlər yaşayırmış və həmin alimlər 110 milyon il qabaq yaşamış hörümçəyin daşlaşmış cismini tapıblar. Bu hörümçəyi başqa arxeoloji tapıntılardan fərqləndirən əsas detal isə onun gözləri idi. Gözlər işıq saçırdı! Təsəvvür elə, yüz milyon il keçir, ancaq sənin gözünün işığı hələ dünyaya düşməkdədir. Açığı, son illər belə romantik-poetik xəbərə rast gəlməmişdim. Bunu hörümçəyin gözündəki hansısa fosforla izah eləmək, əlbəttə, elmi məsələdir. Ancaq biz buna qədimlərdən düşən işıq kimi baxaq.**

Sözgəlişi, bu həftə mən Azərbaycan dövlət radiosunda da təsadüfən elmi verilişə qulaq asırdım (diqqətli oxucular bilir, son çağlar məndə bu radioya təsadüfən qulaq asmaq xəstəliyi yaranıbdır, bu da mənim, necə deyərlər, nirvanaya, vəhdətül-vücuda yetişməyimək üsulumdur), orda bizim heyvanları öyrənmə elmi institumuzun müdiri danışırdı. Deyirdi aləm möcüzə ilə doludur, Quranda "Fil" surəsi, "Qarışqa", "Arı" surələrinin olması da bunu isbat edir. Doğrusu, mənə elə gəldi bu institutu bağlayıb şeyxin idarəsinə tabe eləmək lazım gələcəkdir - möcüzəni araşdırmazlar, ona ibadət edərlər.

Elə AzTV-nin "Haqqın dərgahı" verilişində aparıcının dəyişməsi son islahatlarımızın daha bir tətbiqat sahəsi, 110 milyon illik hörümçəyin gözündən düşən işıqla (yadımdan çıxmamış, kitabda bu heyvanın da adına bölmə vardır, "Əl-Ənkəbut" adlanır) əlaqədardır. Sən demə bu veriliş bizim müstəqilliklə yaşıd olan nadir verilişdən biri imiş və hər həftə hörmətli Vasim müəllim orda 15 dəqiqə ərzində uca millətimizi haqqın dərgahına qaldırırmış, sonra keçmiş sədr Arif müəllim gəlib endirirmiş ki, bir az da fani dünyanın işləriylə məşğul olaq, misal üçün, dinamik islahatlarda iştirak edək, Şamaxıda torpaq tutaq, alver eləyək və sairə. İndən belə isə verilişi gənc molla Hacı Şahin aparacaqdır. Bu münasibətlə dindarlarımızı təbrik edirəm, hərəniz daha böyük dəsmal alıb saxlayın, ağlamalı verilişlər hələ indi gəlir. O cümlədən məsləhətdir "Nə alsan 1, 2, 3, 4, 5 manat" dükanından plastik vanna da alıb verilişə baxarkən böyrünə qoyasan, çün, dəsmalı tez-tez sıxmaq lazım olacaqdır. Vasim müəllim danışanda çox da ağlamalı olmurdu, əksinə, adamı elə yuxu basırdı İsrafil müəllim gəlib zurnasını çalsa oyanmazdın. Adam tanıyıram, 91-ci ildə Vasim müəllimin çıxışına qulaq asıb yatıb, hələ oyada bilmirlər.

Bu arada uzaq bütpərəstlərin, haram it-pişik əti yeyənlərin, yəcuc-məcuc qəbilələrinin məskunlaşdığı daha bir ərazidən - Yaponiyadan xəbər gəlibdir: onların qayırdığı kosmik qurğu bizdən (yəni, yaponlardan, bakılılardan, çeçenlərdən və sairədən) 300 milyon kilometr aralıdakı asteroidə enibdir. Ordan maddə götürüb Yerə dönəcəkmiş. Allahın işinə qarışmaqdır. Eyni zamanda, adam həsəd aparır ki, biz burdan 300 kilometr məsafədəki Qarabağa gedə bilmirik, lakin yapon 300 milyon kilometrə qurğu uçurdur. Möcüzədir. Ümid edirəm radioda bu temada veriliş qayırılar. Qulaqcığı indidən taxıram.

Dini tematika açılmışkən, məni çoxdan düşündürən bir temanı yazım. Nuh peyğəmbərin tufanı, gəmiyə hər heyvandan bir cüt yığması və sairə rəvayətini bilirsiniz. Hərçənd, artıq o qədər rəvayət də sayılmaz, çünki Naxçıvanda Nuh müəllimin qəbri tapılıb, üstü götürülüb, yerli orqanlar tərəfindən abadlaşdırılıb. Hətta məndə olan məlumata görə yerli hakimiyyət dünyadakı hər heyvandan yenə bir cüt alıb orda İlandağın başında müasir işıq dirəkləri, yelkənləri, parkları və oturacaqları olan gəmidə saxlayır - dünyanın işini nə biləsən? Putin Trampı hədələyir, Maduro Kolumbiyaya kəllə atır, fransızlar əlcəzairliləri qırır... Bir də gördün dünyanı təzədən su basdı. Üstəlik, Arktika-Antarktika əriməkdədir. Ancaq bu gün hələlik o işlərə qarışmaq, Qüdrət Nəsənquliyevin tərəfdarı kimi görünmək istəmirəm. İnşallah. Məni düşündürən o qədim gəmidəki heyvanların tufan boyunca nə yeməsidir. Axı sənədlərə görə dünyanı suyun basmağı azı 1 il çəkmişdir. Bəs bu islahatlar, keçid dövründə gəmi sakinləri nə yeyib-içmişdir? Yoxsa bir-birilərini basıb yeyiblər?

Məncə əsas məsələ elə keçid dövründə sağ qalmaqdır. Bir də gözündəki işığı sönməyə qoymamaq.




# ABŞ bölgədə üzünü Azərbaycana çevirir - mühüm gəlişmə

## "Qərbyönlü" Paşinyan Rusiyanı tutdu, Gürcüstan ümidləri doğrultmur, seçim Bakı üzərinə fokuslanır; **ekspert:** "ABŞ-ın bölgədə üç ölkə arasında Azərbaycana verdiyi önəm artıq Gürcüstana verdiyindən də çoxdur"; Qarabağ üçün şans "pəncərəsi" açıla bilərmi?

**Ötən həftə Güney Qafqaz və onun ətrafında ölkəmizin də maraqlarına təsirsiz ötüşməyəcək bəzi maraqlı olaylarla yadda qaldı. Ondan başlayaq ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri Bakıda və İrəvanda olsalar da, bu dəfə ənənəni pozaraq separatçı bölgəyə, Xankəndinə baş çəkmədilər.**

Nəzərə alanda ki, üç həmsədrdən ikisi - ABŞ və Fransa Qərbi təmsil edir, o zaman bunu son vaxtlar İrəvanın Qarabağ məsələsində Qərbin gözləntilərinə zidd olaraq və Kremlin diktəsi ilə destruktiv mövqe tutmasına, bütövlükdə Rusiya və İrana daha da yaxınlaşma siyasəti yürütməsinə (Suriyaya humanitar missiyanın göndərilməsi, hökumətin yeni proqramında xarici siyasətin əsas prioriteti kimi Rusiyanın göstərilməsi və s.) etiraz kimi qəbul eləmək olar. İki gün sonra isə baş nazir Nikol Paşinyan İrana səfərə gedəcək.

Regionla bağlı başqa diqqət çəkən gəlişmə Moskva və Tehrana yaxınlaşma kursu götürməklə Qərbi, ABŞ-ı ciddi şəkildə məyus edən, Rusiyanın forpostu Ermənistana qərbyönlü Gürcüstanın da yaxınlıq nümayiş etdirməsidir. Məsələn, ötən həftəsonu Gürcüstanın müdafiə naziri Levan İzoriya İrəvanda oldu və orada erməni həmkarı David Tonoyan və Nikol Paşinyanla görüşdü. Tərəflər arasında hərbi əməkdaşlığı inkişaf etdirmək barədə yeni saziş imzalandı.

Erməni qaynaqları bildirir ki, görüş zamanı N.Paşinyan "iki ölkə arasında dost münasibətlərin möhkəmləndirilməsi və qarşılıqlı səfərlərin vacibliyini" vurğulayıb. "Bu cür yüksək səviyyəli səfərlər və siyasi məsləhətləşmələr ikitərəfli əməkdaşlığa stimul verir və onu yeni mərhələyə çıxaracaq", - deyə o bildirib. Öz növbəsində gürcü müdafiə naziri iki ölkə arasında 2019-cu il üçün hərbi sahədə imzalanmış sənədi yüksək qiymətləndirərək deyib ki, "Gürcüstan Ermənistanla dost münasibətlərin möhkəmləndirilməsində maraqlıdır və bu yöndə effektiv qarşılıqlı fəaliyyətə hazırdır".

"Görüş zamanı tərəflər Ermənistan-Gürcüstan hərbi əməkdaşlıq gündəmindəki məsələləri müzakirə edib, regional təhlükəsizliyin və sabitliyin təmin edilməsi, konfliktlərin dinc həlli ilə bağlı fikir mübadiləsi aparıblar. Paşinyan regional münaqişələrin nizamlanmasında qarşılıqlı balanslı yanaşmanın vacibliyini vurğulayıb" - rəsmi erməni mənbəyinin yaydığı məlumatda deyilir.

*****

N.Paşinyanın konkret olaraq Qarabağ məsələsində hansı "balanslı və konstruktiv mövqe" tutduğu artıq bəllidir. Bu, öz yerində. Ancaq Azərbaycanın strateji tərəfdaşı sayılan və özünün də ərazisinin bir hissəsi işğal altında olan Gürcüstanın işğalçı Ermənistanla isti əlaqələr qurmağa can atması, hətta onunla hərbi sahədə əməkdaşlığı inkişaf etdirməyə çalışması rəsmi Bakı üçün, yumşaq desək, xoş deyil. Hər necə olmasa, Azərbaycan qardaş Türkiyə ilə birgə gürcü dövlətinin ayaqda qalması və təhlükəsizliyinin əsas qarantı, onun iki ən böyük sərmayədarıdır. Bu haqda dəfələrlə yazmışıq.

Maraqlıdır ki, gürcü müdafiə nazirinin İrəvan səfərindən cəmi iki gün qabaq Dağlıq Qarabağdakı separatçı rejimin "müdafiə naziri" Masis Mailyan Gürcüstanın işğal altındakı Cənubi Osetiya bölgəsində olub və Tsxinvalidə osetin həmkarı Dmitri Medoyevlə görüşüb; iki marionet rejim arasında "əməkdaşlıq sənədi" imzalanıb. Lakin göründüyü kimi, bu, İzoriyanın Ermənistan səfərini əngəlləməyib.

Nonsens həm də ondadır ki, öz ərazisində Xocalı hərbi canisinə büstün qoyulmasına sakit reaksiya verən Tiflis bölgədəki ikinci bir işğalçı ilə - Gürcüstan ərazilərini işğal edən və orada (Abxaziya və Cənubi Osetiyada) böyük hərbi kontingent yerləşdirən Rusiya ilə yaxınlaşma siyasəti aparır. Söhbət təkcə guya Azərbaycan qazından asılılığı azaltmaq üçün Rusiyadan qaz idxalını artırmaq planlarından getmir. Məsələ ondadır ki, gürcü hökuməti öz ərazisi vasitəsilə bir işğalçı ölkədən - Rusiyadan, ikinci işğalçı ölkəyə - Ermənistana dəhliz açmaq niyyətindədir.

NATO-ya, Avropa Birliyinə can atan Gürcüstanın bölgədə "ət-dırnaq" kimi olan iki təcavüzkarla - Rusiya və onun hərbi qalası Ermənistanla mehribanlaşması şübhə yox ki, Qərbin, xüsusən də ABŞ-ın marağında deyil. Bu gəlişmələr fonunda isə bölgənin üçüncü və açar dövləti - balanslı siyasəti davam etdirən Azərbaycanın Qərb üçün, ABŞ üçün strateji dəyərinin daha da artdığını söyləmək mümkündür.

Ötən həftə Bakıda ABŞ dövlət katibinin köməkçisinin müavini Sandra Oudkirkin də iştirakı ilə keçirilən "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 5-ci iclası bu xüsusda yadda qalan oldu. Yeri gəlmişkən, səfərdən bir qədər öncə amerikalı diplomatın təmsil elədiyi ABŞ Dövlət Departamenti Suriyaya humanitar missiya göndərdiyi üçün Ermənistana çox sərt etiraz bildirmiş, Paşinyan hökumətini Rusiya ilə birgə "zalım Əsəd rejiminə dəstək verməkdə" ittiham eləmişdi. Ardınca xarici işlər naziri Zoqrab Mnatsakanyanın ABŞ səfəri ləğv edildi.

Bəzi analitiklərə görə, bölgə ətrafındakı yeni vəziyyət, bu kimi gəlişmələr Dağlıq Qarabağ məsələsində Azərbaycan üçün daha əlverişli beynəlxalq şərait yarada, hətta Bakı üçün yeni şans "pəncərəsi" açıa bilər...

*****

Sabiq xarici işlər naziri Tofiq Zülfüqarov da son zamanlar Gürcüstan və Ermənistanla Rusiya arasında işbirliyinin olması mülahizələrinə münasibət bildirib, axır vaxtlar Gürcüstan və Ermənistan, eləcə də Rusiya siyasiləri arasında keçirilən görüşlərin sayında artıma diqqət yönəldib (axar.az). O, əsas müzakirə mövzusu kimi təbii qaz və Ermənistana gedəcək yüklərin Gürcüstan vasitəsi ilə daşınmasının olduğunu desə də, vəziyyətin geosiyasi duruma təsirsiz ötüşməyəcəyini istisna etməyib.

"Bu gün ABŞ-ın dünyada əsas prioritetləri sırasında Cənubi Qafqaz regionu ilk yerlərdə olmasa da, İran ətrafında baş verən hadisələr, Ermənistan tərəfindən 83 hərbçinin Suriyaya göndərilməsi Azərbaycanın strateji və tərəfdaş nüfuzunu Qərb ölkələri, ilk olaraq ABŞ yanında qaldırır. ABŞ-ın bizim regionda yerləşən 3 dövlət arasında Azərbaycana verdiyi önəm artıq Gürcüstana verdiyi önəmdən belə, çoxdur. Hər halda Qafqazın üç dövlətinə nəzər yetirəndə aydın görünür ki, milli maraqlardan çıxış edən, tam şəkildə müstəqil siyasət yeridən, xalqının və dövlətinin maraqlarını reallaşdıran yeganə ölkə Azərbaycandır", - deyə Tofiq Zülfüqarov qeyd edib.

Ekspert hesab edir ki, regionda Ermənistanın və Gürcüstanın apardığı siyasət milli maraqlara cavab verən siyasətdən uzaqdır. "Ermənistan Rusiyanın forpostudur. Gürcüstan isə heç də gözlənilən ümidləri doğrultmadı. Dəhşətli məqam ondan ibarətdir ki, torpaqlarının işğal olunmasına baxmayaraq, rəsmi Tiflis Ermənistana tranzit yolu açılmasından sonra Cənubi Osetiyanı sərhəd məntəqəsi kimi tanıyacaq. Azərbaycan üçün isə bu, o qədər də önəmli məsələ deyil. Faktiki olaraq, Ermənistan və Rusiya arasında ticarət dövriyyəsi bundan artıq olmayacaq. Azərbaycanın bölgə dövlətlərindən əsas istəyi isə sadiq və bərabərhüquqlu münasibətlər aparmaları, sülhə hesablanmış siyasət yürütmələridir", - deyə o əlavə edib.

Lakin bölgədə iki işğalçı dövlət bir-biri ilə hərbi-siyasi ittifaqdadırsa, üstəlik, qərbyönlü Gürcüstan onlara yaxınlaşma kursu aparırsa, o zaman Qərb özü üçün nəticə çıxarmalı və seçim barədə düşünməlidir. Yəni Cənubi Qafqazda kimə stavka və etibar etməli, kimlə hərəkət etməli? Mövcud situasiya və reallıqlar, bizcə, bu suala yetərincə aydın cavab verir...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 44 (7214) 25 fevral 2019

**Son günlər ABŞ tərəfindən Ermənistana sərt şillələr dəyir. Məlum olduğu kimi, ötən həftə Vaşinqton Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyanın ABŞ-a səfərini ləğv edib. Bu səfərə İrəvanda uzun müddət hazırlıq görülmüşdü. Ötən həftə isə ABŞ Dövlət Departamenti Paşinyan hökumətinin Rusiyanın xahişi və himayəsi altında Suriyaya sapyorlar da daxil olmaqla, 83 nəfərlik erməni humanitar missiya göndərməsinə olduqca sərt reaksiya vermiş, rəsmi İrəvanı Moskva ilə birgə "zalım Əsəd rejiminə dəstəkdə" ittiham eləmişdi.**

# Qərbə "atan" Paşinyanı hansı cəza gözləyir?

## Politoloq: "Onun addımları məcburi rusiyapərəstlikdən qaynaqlanır"

Onu da qeyd edək ki, bu günlərdə ABŞ Maliyyə Nazirliyinin Xarici aktivlər üzərində nəzarət idarəsi Suriyada fəaliyyət göstərən iki iranlı hüquqi şəxsə bu ölkəyə silah daşıdığı üçün sanksiya tətbiq edib və məlum olub ki, bunlar İran İslam Keşikçiləri korpusuna bağlı "Mahan Air" aviaşirkəti və həmin şirkətin Ermənistandakı satış üzrə baş agentliyi "Flight Travel LLC"dir. Bütün bunların fonunda Paşinyan iki gün sonra ABŞ-ın üç düşmənindən biri olan İrana səfərə hazırlaşır.



Politoloq Mübariz Əhmədoğlu "Yeni Müsavat"a mövzu ilə bağlı fikirlərini bildirdi. Onun sözlərinə görə, əslində baş verənlər Paşinyanın səriştəsizliyini, siyasətçi olmamasını bir daha ortaya qoyur. Lakin politoloq hesab edir ki, Paşinyan Qərbdən ayrıla bilməyəcək: "Hələ ki, Paşinyanın Rusiyapərəst siyasət apardığını söyləmək də çətindir. Paşinyan siyasətə ayrı bir baxışı olan adamdır. Onun siyasi baxışları çox bəsit düşüncələr əsasında qurulub. Məsələn, o, elə başa düşür ki, Ermənistanın daxilində polisin zoru ilə hər bir şeyə nail olmaq mümkündür. Görürük ki, varlı, nüfuzlu adamları yolun ortasında palçığa yıxdırırdı. Düşünürdü ki, bununla Ermənistanın büdcəsini dolduracaq. Lakin onun bu addımları da gözlənilən nəticə vermədi. Eləcə də Ermənistanın xarici siyasətinə baxmaq lazımdır. Mənim fikrimcə, hal-hazırda Paşinyanın rusiyapərəstliyində iki element var. Onlardan biri məcburidir. Yəni Paşinyan başa düşür ki, Rusiya böyük dövlətdir və hərbi bazasını Ermənistanda saxlayır, təlimlər keçir. Düşünür ki, Rusiyanın bu hərbi bazası Ermənistanın daxilində istənilən anda, ona uyğun olmayan hökuməti devirə bilər. İkincisi də Paşinyanın münasibətində ən vacib istiqamət budur ki, adam özünü ağıllı və hiyləgər hesab edir. Düşünür ki, bu qaydada Rusiyaya yaxınlaşmaqla, rusları aldadıb, onların içərisində müəyyən bir qrupu ələ alacaq. Bu yolla da guya həmin adamları Qərbə təhvil verəcək, Qərbi Rusiyanın müxalifəti ilə calaşdıracaq. Nəticədə düşünür ki, Rusiya daxildən parçalanacaq və Ermənistan da bu üsulla Qərbdən pul qazanacaq. Paşinyan hakimiyyətə gələndən bu ideyanın dalınca gedir. Sizə bir fakt deyim. Aram Xaçaturyanın "Qaryane" adlı baleti var. Bu balet 1950-ci illərdə yazılıb. Elə həmin illərdə də baletə qadağa qoyuldu və Moskvada nümayiş edilmədi. Baletin süjeti belədir ki, Ermənistanda sovet hökuməti qurulur, ermənilər kolxoz quruluşuna etiraz edirlər. Bu zaman Qayane adlı bir qız görür ki, erməni həyat yoldaşı kolxoz quruluşunu dağıtmağa gedir, bunu rus kazaklarının başçısına satır. Rus kazak onun həyat yoldaşını öldürür, qız da deyir ki, mən səninlə evlənəcəyəm. Qafqaz prizmasından baxanda bu, şərəfsizlikdir. Paşinyan hakimiyyətə gələndən sonra bu baleti Moskvada nümayiş etdirdi. Bununla da deməyə çalışdı ki, bizim namusumuz da sizindir. Paşinyan bu yaxınlarda Nikita İsayevlə də görüşdü. Bu da əslində yuxarıda dediyim fikrin sübutudur ki, o, Rusiyanın daxildən parçalanmasında Qərbin aləti olmaq planını da qurur".

Politoloq bildirib ki, daha öncəki prezidentlərdə də Rusiyaya yaltaqlanaraq, altdan-altdan balta çalmaq işləri olub: "Köçəryan Rusiyaya yalvara-yalvara, ABŞ-ın ikinci ən böyük səfirlik binasını İrəvanda tikdi. Məhz Köçəryanın dövründə Xodorkovskinin pulunun 5 milyard dolları Köçəryanın vasitəsilə Amerikaya köçürüldü. Paşinyan da bu yolu getməyə çalışır. Ona görə də düşünürəm ki, Paşinyanın hazırkı addımları məcburi rusiyapərəstlikdir. O da başa düşür ki, Serj Sərkisyan, Köçəryan Amerikadan ona görə investisiya ala bildilər ki, məhz bu cür siyasət aparırdılar. Üzdə Rusiyaya müttəfiq deyib, arxada Rusiyaya qarşı addım atırlar. Ən qatı rusiyapərəst kimi bizim cəmiyyət Sərkisyanı hesab edir. Deyim ki, çərkəzlər bizə yaxın olsalar da, heç zaman ölkəmizdə "çərkəz soyqırımı" kəlməsi işlədilməyib. Çünki bu, Rusiyanın birmənalı olaraq xoşlamadığı, qəbul etmədiyi ifadədir. Sərkisyan isə az qala, çərkəz soyqırımını tanıyırdı. İndiki halda Avropa İttifaqı Paşinyana kredit vermir. Bu xüsusda ya Paşinyan Avropa İttifaqının tələb etdiyi kimi Dağlıq Qarabağ məsələsini həll etməlidir, ya da hökmən Avropa İttifaqına anti-Rusiya riçaqı verməlidir. Hazırkı zamanda düşünürəm ki, Paşinyan məhz bununla məşğuldur. Ona görə də baş verənləri Paşinyanın rusiyapərəst olması ilə əlaqələndirmirəm. Paşinyanın kiçik beyni və düşüncəsi var və buna müvafiq də işlər aparır".

❑ **Əli RAİS,
"Yeni Müsavat"**

# "Əli İnsanov azadlığa buraxılmalıdır"

## Etibar Məmmədov: "Bütün hakimiyyətlərin dövründə hamı ilə münasibətlərimi normal saxlamağa çalışmışam"

**Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) qurucusu və ilk sədri Etibar Məmmədov demokrat.az xəbər portalına müsahibə verib. Müsahibəni qısa ixtisarla təqdim edirik:**

**- Bir neçə gün sonra cinayətkar erməni və rus hərbiçiləri tərəfindən törədilən Xocalı faciəsinin 27-ci ildönümü tamam olur. Bu faciənin qarşısını almaq mümkün ola bilərdimi?**

- Xocalı faciəsi Ermənistan-Azərbaycan müharibəsinin ən ağır səhifəsidir, dinc əhaliyə qarşı törədilmiş cinayətdir, soyqırım cəhdidir. Bu, insanlığa qarşı böyük cinayət hesab olunur. Xocalı faciəsinin törədilməsində erməni işğalçıları ilə bərabər Rusiyanın 366-cı alayının hərbiçiləri də iştirak ediblər. Yəni Xocalı faciəsinin məsuliyyətini həm Ermənistan, həm də Rusiya daşıyır. Onların da cəzalandırılması mütləq vacibdir. Çox təəssüf ki, indiyədək Xocalı faciəsinin törədilməsində iştirak etmiş cinayətkarların heç biri cəzalandırılmayıb. Halbuki həm beynəlxalq, həm də Azərbaycan qanunlarının tələblərinə görə onlar cəzalandırılmalı idilər. Təəssüf ki, indiyədək onlar hələ də cəzasız qalıblar.

**- Xocalı faciəsi törədilən zaman Azərbaycana rəhbərlik etmiş Ayaz Mütəllibov müsahibələrində bildirir ki, həmin dövrdə o, Xocalıda baş verənlərdən xəbərsiz olub. Necə düşünürsünüz, prezidentin belə bir faciənin törədilməsindən və nə qədər adamın həlak olmasından xəbərsiz olması mümkün idimi?**



- Belə danışan adamlar gərək öz məsuliyyətlərini dərk etsinlər. Yəni dövlətə başçılıq edən və prezident vəzifəsini daşıyan adam həm dövlətin, həm də əhalinin təhlükəsizliyi üçün məsuliyyət daşıyır, buna görə and içir. Prezidentin məsuliyyəti odur ki, o, belə məqamlarda lazımi tədbirləri görməlidir. İndi Ayaz Mütəllibov bu tədbirləri görüb və yaxud görməyib, bütün bunlar o zaman yaradılan komissiyanın işində öz əksini tapıb. Heç kəs demir ki, Ayaz Mütəllibov bunu bilərəkdən edib və yaxud da xəyanət olub. Sadəcə olaraq, o, bu məsələdə bir prezident kimi vəzifə məsuliyyəti daşıyır.

Eyni zamanda, həmin dövrdə hərbi və inzibati vəzifə tutanlar da məsuliyyət daşıyırlar. Təbii ki, onların məsuliyyəti başqadır, ermənilərin məsuliyyəti isə cinayət məsuliyyətidir. Bu günədək ermənilər insanlığa qarşı törədilən cinayətə görə məsuliyyətə cəlb olunmalı idilər. Çox təəssüf ki, bu təcrübədən hələ ki, istifadə olunmayıb. Dövlət tədbirlər görməli idi ki, Xocalı faciəsini törədənlər sonradan rahat yaşaya bilməsinlər. Onların rahat yaşamasına imkan vermək olmaz.

**- Ayaz Mütəllibovun da cəzalandırılmasını istəyirsiniz?**

- Xeyr, mən demədim ki, Ayaz Mütəllibov da cəzalandırılsın. Onsuz da o cəzalandı və prezident vəzifəsini itirdi. Dediyim kimi, Ayaz Mütəllibov Xocalı faciəsinin törədilməsində vəzifəsini yerinə yetirməməyinə görə məsuliyyət daşıyır. Ancaq burada cinayət törətmiş şəxslər Ermənistan və Rusiya tərəfidir. Burada söhbət heç də dövləti cəzalandırmaqdan getmir. Xocalıda cinayəti törədən rusları və erməniləri cəzalandırmaqdan söhbət gedir. Bu şəxslər rahat həyatlarını davam etdirməməlidirlər. Yəni dövlət tərəfindən lazımı tədbirlər görülməlidir ki, onlar ən azı narahatlıq keçirsinlər. Daha əl-qollarını sallaya-sallaya istədikləri yerə rahat gedib-gələ bilməsinlər.

**- Bəzən müxalifətdən olan tanınmış şəxslər sizin hakimiyyətlə yaxın əlaqələrdə olduğunuzu iddia edirlər. Bu, nə qədər doğrudur?**

- Mən bütün hakimiyyətlərin dövründə hamı ilə münasibətlərimi normal saxlamağa çalışmışam. Hesab edirəm ki, normal insani münasibətlərin saxlanılması başqa cür yozula bilməz. Hər zaman belə düşünmüşəm ki, Azərbaycan daxilində heç kəs bir-birinə düşmən kimi baxmamalıdır. Bizim düşmənimiz məlumdur. Düşmənə qarşı da düşmən mövqeyində olmalıyıq. Aydın məsələdir ki, mənim və hakimiyyətdə təmsil olunan adamların fikirləri fərqli ola bilər. Bu da təbiidir. Mən hakimiyyətin bir çox mövqeləri ilə razı deyiləm. Mənim kimi narazı olan başqa adamlar da var. Onlar fikirlərini azad şəkildə bildirməlidirlər. Mənim istəyim də odur ki, fərqli fikir bildirən adamları təqib etmək, cəzalandırmaq olmaz. Əgər indi hakimiyyətdə olanlardan kim bunu edirsə, bu dövlətə ziyan vuran addımdır. Ancaq bir daha deyirəm ki, bu gün hakimiyyətdə təmsil olunan adamlarla 30-40 illik münasibətlərim var. Əgər mən kiminləsə 30-40 ildir tanışamsa, o zaman bu gün ona üz çevirib getməli deyiləm.

**- Hazırda həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovun martda azadlığa buraxılacağı ilə bağlı xəbərlər dolaşır. Bununla bağlı nə deyə bilərsiniz?**

- Çox istərdim ki, Əli İnsanov tezliklə azadlığa buraxılsın. Çünki bu yaşda insanın həbsdə qalması heç də xoşagələn hal deyil. Digər tərəfdən isə Əli İnsanov həddindən artıq cəzasını çəkib. Tanınmış alimin, yaşlı insanın hələ də həbsdə qalması Azərbaycana hörmət gətirmir.

YENİ MÜSAVAT
N 44 (7214) 25 fevral 2019



# Sayı azalan, borcu çoxalanların iddiası

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**"İnsanlar dövlətin rəsmi mövqeyini qəbul ediblər. O da ondan ibarətdir ki, "Qarabağ bizimdir, heç kimə qaytarmayacağıq, mövqeyimiz qətidir". Onlar hesab edirlər ki, Ermənistan güzəştə getməyəcək, getməməlidir". Bunu Ermənistandan qayıtmış "Turan" Agentliyinin redaktoru Şahin Hacıyev "BBC News Azərbaycanca"ya deyib.**

İşğalçı Ermənistana ən sonuncu getmiş azərbaycanlının müşahidələri və açıqlamaları onu deyir ki, düşmən nəinki 5 rayonu, heç 5 kəndi də geri qaytarmaq niyyətində deyil.

Əslində bu, çoxdan bəlli olan reallıqdır. 2016-cı ilin aprelində Azərbaycan ordusu Lələ təpə yüksəkliyini geri qaytarandan sonra Serj Sərkisyan havalanmamışdımı? Əraziləri "geri qaytarmaq" (?!) üçün sentyabradək Bakıya vaxt verməmişdimi? Yaxud keçən il ordumuz Naxçıvan tərəfdən mühüm yüksəkliyi geri aldı, Nikol Paşinyan yarım il sonra faktı etiraf etdi. Amma iddia elədi ki, əməliyyat o hakimiyyətə gəlməzdən əvvəl keçirilib.

Bu faktlar göstərir ki, Ermənistan hakimiyyəti xalqdan vasitə kimi istifadə edən qüvvələrin qəzəbindən qorxur. Üstəlik, on illərdir beyinləri "yuyulanlar", saxta iddialarla doldurulanlar da güzəşti qəbul etmirlər. Belə olan təqdirdə Paşinyanın başına atmı təpib, güzəştə getsin?

Jurnalist Şahin Hacıyev Ermənistan prezidentinin müşaviri Tevan Poqosyandan müsahibə almışdı. Müsahibədə güzəştlərə yönəlik kiçicik bir məqam var idi, həmin müşaviri yarandığına peşman etdilər. O da özəl açıqlama ilə çıxış edib özünü "təmizə" çıxartmağa vadar oldu.

Ermənilər hətta "Dağlıq Qarabağın müstəqilliyinin əvəzində" ətraf rayonların azad olunmasını qəbul etmirlərsə, danışıqların mənası qalmır. Təbii ki, "müstəqillik" təklifi Azərbaycana yox, vasitəçilərə məxsusdur, rəsmi Bakı bunu rədd edir. Amma söhbət işğalçı ölkədəki əhval-ruhiyyədən gedir.

Belə vəziyyətdə Minsk Qrupu həmsədrlərinin İrəvana və Bakıya gəlmələri sual doğurur. Şahin Hacıyevin timsalında bir jurnalist Ermənistandakı ictimai rəyi dəqiqliklə öyrənə bilibsə, deməli, vəziyyət həmsədrlərə çoxdan məlumdur. Çox güman ki, Paris görüşündə "xalqların sülhə hazırlanması" barədə anlaşmanın əldə olunmasından məhz buna görə çox sevincək olmuşdular. Amma "Turan"ın jurnalisti məhz həmsədrlərin sevincək yaydıqları bəyanatdan sonra İrəvana getmişdi. Hətta ermənilər Davos görüşündən sonra şübhələndikləri Paşinyanın "pişiyini ağaca dırmaşdırırdılar" və erməni baş nazir bəyanatlarındakı aqressiyanı artırmağa vadar oldu.

Qırımından görünür ki, Nikol Paşinyan sələfləri kimi torpaq qaytarmaq niyyətində deyil. Əksinə, "xalqın mandatı"nı əldə etdiyini iddia edən baş nazir daha uca səslə erməni xalqının və erməni diasporunun iradəsindən kənara çıxa bilməyəcəyini nümayiş etdirir.

"Qarabağ problemini gələcək nəsillərə saxlamağa mənəvi haqqımız yoxdur". Bunu professor İlham Rəhimov Moderator.az saytına müsahibəsində deyib. Azərbaycan naminə kifayət qədər xidmətləri olan hüquq professoru tam haqlıdır. Ermənistanda zənn edirlər ki, artıq Qarabağ məsələsi bitib. Necə ki, vaxtilə Serj Sərkisyan deyirdi Qarabağ məsələsini bizlər həll etdik, erməni gəncliyi də Ağrının taleyi ilə məşğul olmalıdır.

Bizim Qarabağ məsələsini gələcək nəsillərə saxlamağımız torpaqların əbədi itirilməsinə apara bilər ki, bu da çox təhlükəli məsələdir. İndi Azərbaycandan çox uzaqlarda yaşayan tanınmışlardan biri vaxtilə israrla bu sətirlərin müəllifinə deyirdi ki, Qarabağ məsələsinin həllini gələcək nəsillərə saxlamaq lazımdır. Guya savaşda iştirak etməyən nəsil yetişəcək və üz-üzə oturub sülhə gələcək, iddialar da bitəcək, işğal da. Əslində ermənilərin də istədiyi budur. Ona görə status-kvonu qoruyub-saxlamağa çalışırlar.

Brüsseldə, Kaliforniyada baş tutan aksiyanı ancaq təqdir etmək lazımdır. Ancaq erməniləri ifşa tədbirləri il ərzində keçirilməlidir. Düşmənə qarşı səfərbər olunsaq, bu, həm də bizim öz enerjimizi daxili konfliktlərə sərf etməyimizə, dedi-qodulara vaxt ayırmağımıza da mane olar. Zatən, düşmənin istədiyi də budur, bizi parçalasın və ərazilərimizi əbədilik qəsb etsin.

Elə İrəvandan qayıdan jurnalistin müşahidələri də bunu deyir. Ermənistan boşalır, əhalinin sayı 2 milyona düşüb - Azərbaycandan 5 dəfə az! Üstəlik, işğalçı ölkənin xarici borcu 6 milyarda çatıb - 45 milyardlıq ehtiyata malik Azərbaycandan fərqli olaraq! Amma yenə də iddiasından, işğaldan əl çəkmir. Sayları azalsa da, borcları çoxalsa da, Qarabağdan əl çəkən deyillər...

**Azərbaycanlılar dəbdəbəni sevdiklərinə görə ölənlərinin qəbir daşını da bər-bəzəkli, əzəmətli, mərmərdən düzəltdirirlər, bir ətək pul tökürlər.**

lərin bakılı yəhudilər olduğunu xatırlayır: "İndi onlar burda yaşamırlar, çoxu köçüb, qalanlar da bu pulu xərcləmirlər. Parzis deyilən qırmızı mərmər daş var, ən qiymətlisidir, ondan başdaşı düzəltdirirdilər. İndi kündür. Onlardan biri də Alatavada yerləşir. Öyrənirik ki, Çindən gətirilmiş ağ mərmərdən başdaşı 1000 manata başa gəlir. Amma sex sahibi əvvəlcədən şərt kəsir. Bir neçə aydan sonra daş saralar və ya çatla-

qiymətləri ilə tanış olanda az qala öz başını itirir.

Sifariş götürən isə soyuqqanlıdır, qiymət sövdələşməsində dəridən-qabıqdan çıxmır, heç müştərini itirmək, əldən çıxmaq qorxusu da yoxdur. Ne-

# Bakıda qəbir yerinin və başdaşının qiyməti qalxıb

## Şəhərdə daha qırmızı mərmərdən başdaşı sifariş edilmir, qara mərmər 5, abidə düzəltməyin qiyməti isə 10 min manatdan başlayır...








Kimisi də rəhmətə gedənin büstünü, heykəlini qoydurur, kimisi ağ, kimisi qara daşa üstünlük verir, azı 2000-3000 manat xərc çəkirlər. Nisbətən ucuz məzar daşı sifariş verənlərin isə 1000-1200 manatı çıxır.

Dünyanın heç bir ölkəsində qəbir daşına bu qədər pul xərclənmir. İstər müsəlman ölkələrində, istərsə xristian dövlətlərində sadə məzar daşları olur. Azərbaycanda isə yas məclislərində ehsan israfçılığından tutmuş dəbdəbəli qəbir daşına qədər təşkil olunur.

***

...Yasamal qəbiristanlığının yaxınlığındakı qəbir daşı sexində gecə-gündüz işləyirlər. Onların sifarişsiz ayı yoxdur. Bəzi abidə daşları çöldə qoyulub ki, sifariş vermək istəyən müştərilərin diqqətini çəksin.

Adi qara məzar daşını göstərən sex işçisi deyir ki, qiyməti 2200 manatdır. Qara mərmərdən olan qəbir abidəsinin qiyməti 5000 manatdır.

Onun sözlərinə görə, heykəl sifariş edənlər 10 000 - 12 000 manatdan keçməlidir. Adi ağ daşlar isə 500-700 manat da var. Di gəl, onlar tez qaralır, çat verə bilir, yağış və qar suyuna davamsızdırlar.

Məzar daşı düzəldən ustanın dediyinə görə, qiymətlərin bahalığına səbəb həm materialın keyfiyyəti, həm də xaricdən idxal olunmasıdır. Ona görə daşınma, gömrük rüsumları və s. xərclər üst-üstə gələndə Bakıda qəbir daşı baha başa gəlir. Həmsöhbətimiz danışır ki, vaxtilə Azərbaycanda qırmızı mərmərdən qəbir daşları sifariş olunurdu. Bu abidələrin qiyməti nə az, nə çox 500 min manat imiş.

***

Müsahibimiz yarım milyonluq qəbir abidəsini sifariş edənkimdir o qədər pulu verən? Həm də nə ehtiyac var axı?!

Bizim camaat hər şeyin dəbdəbəsinə, bəzəklisinə qaçır. Ölənə o qəbir daşının nə savabı var, nə xeyri. Əslində, qəbir daşı balaca olmalıdır, sonra torpağa qarışıb itməlidir. Ancaq get gir içəri, (Yasamal məzarlığını nəzərdə tutur - E.S) necə qəbirlər görəcəksən. Biri şəkillərini düzdürüb, biri şeirlər yazdırıb, biri heç ölməyib, özünə indidən heykəl qoydurub. Artıq xərclərdir. Bunu insanların beyninə yeritmək olmur".

Həqiqətən də müşahidə apardığımız və bəzilərini lentə aldığımız yüzlərlə bahalı başdaşları gördük.

Mərhum heç bilmir ki, qoyub gəldiyi bu dünyada oğlu, qızı, valideyni ya yaxın adamı onun üçün qara mərmərdən üçmərtəbəli başdaşı düzəldib, hər iki tərəfdən şəklini döydürüb, üstünə şeir, ürək sözlərini yazdırıb.

Amma kimi yaxınına son borcunu vermək, kimi də "qonşudan qalma geri" prinsipi ilə hələ də bu yükün altında əzilir.

***

Yada salaq ki, yas mərasimlərində israfçılığa yol verilməsi ilə bağlı tənqidlərdən sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi təkliflər hazırlamışdı.

Layihə Milli Məclisdə müzakirə edildi, məzar üçün götürüləcək ərazidən tutmuş, başdaşların ölçüsünə qədər standartlar müəyyənləşdirilmişdi. Amma qanun qəbul olunmadı. Əvəzində ölkəyə gətirilən mərmərin, qranitin qiyməti artırılıb, rayonlarda başdaşı üçün ucuz daş tapmaq müşkülə çevrilib.

Əvəzində Bakıda başdaşı sexlərinin sayı az qala şadlıq evlərinin sayına çatıb. İstənilən rəngdə, ölçüdə və dizaynda başdaşı sifariş vermək müm-

yarsa, məsuliyyət daşımırlar. Ağ mərmər qarası ilə əvəz olunarsa, qiymət 2500-3000 manata yüksəlir. İtaliyadan, Afrikadan, Hindistandan gətirilmiş mərmərin qiyməti keyfiyyət və ölçüsünə görə 4 min manatdan başlayır.

***

Sex işçilərinin sözlərinə görə, dolların bahalaşmasından sonra qiymətlər artıb. İndi Ukraynadan daş gətirmək sərf etmir. Çünki dollardan savayı, Ukraynada mərmərin qiyməti artıb. Buna görə də, bu ölkədən gətirilən daşlar 35-50 faiz bahalaşıb. Eləcə də, Afrikadan, Hindistandan, Uraldan gətirilən daşlar bahalaşıb. Məsələn, qara mərmərdən güldan üçün 100-300 manat ödəmək lazımdır. Mərhum oxuyan olubsa, kitab formasında balaca heykəl alıb qoymaq olar. Bunun üçün 500-1000 manat bəs edər. Məzarın üzərində zərli qələmlə ad, soyad yazdırmağın qiymətləri də fərqlidir. Müşahidələrimizə görə deyə bilərik ki, indi başdaşı sifariş vermək də şadlıq evində menyu tərtib eləmək kimi bir işdir.

Müştərinin qabağına kataloq qoyulur, qiymətlər, dizaynlar, müxtəlif çeşidlər təklif edilir. Ölü yiyəsi başdaşının cə olmasa ölən çox, müştəri çox...

Onu da deyək ki, sexlərə siyasətçilərin, şairlərin, tanınmış adamların abidələri, heykəlləri də dövlət qurumları, icra hakimiyyətləri tərəfindən sifariş edilir.

Oxucular sual edə bilər ki, bəs öləndən sonra qarışacağımız torpaq neçəyədir? Bunu da öyrənmişik. "Qurd qapı"sının boş qalan arxa massivində 5000 manatdır, girişə yaxın yer götürmək isə 7000 manatdan aşağı deyil.

Bundan başqa, Biləcəridə 500-600, Xırdalanda 1000-1500, Günəşlidə 600-1000, Qaraçuxurda 500-700, Hövsanda isə məzarlıqlarda qəbir yerləri 300-400 manatdır.

Bu qiymətlər təbii ki, stabil deyil. İldən-ilə, şərtlərə və şəraitə uyğun dəyişir. Artıq məzarlıqlarda yer qalmayıb.

Kimisi özünə diri ikən qəbir qazdırıb böyük bir yeri hasarladıb, kimisi də hər tərəfini mərmər edərək azı iki ölünün yerini "darısqal" edib.

Ancaq bu dünyadan yarım metr kəfəndən başqa heç nə aparmaq olmur ki olmur...

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**
**Fotolar müəllifindir**

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**





# Rusiya Qarabağ "düyün"ünə yeni "düyün" vurur

## Konfliktin həllində Qərb-Rusiya çəkişməsi güclənir; **hərbi ekspert:** "Ermənistan həqiqətləri anlamalı və işğal etdiyi torpaqları boşaltmalıdır..."

**Ötən həftə ATƏT-in Minsk Qrupunun həmsədrləri növbəti dəfə regionda oldular, Azərbaycan və Ermənistan rəsmiləri ilə görüşlər keçirdilər. Lakin bu dəfə onlar ənənəni pozaraq, işğal altındakı Dağlıq Qarabağa baş çəkib separatçıların başçısı ilə görüşməyə lüzum görmədilər. Bu da siyasi müşahidəçilərin diqqətindən yayınmadı.**




"Həmsədrlər yüz neçənci dəfədir regiona gəlirlər. Onların səfəri artıq təkcə ictimaiyyətdə yox, jurnalistlərdə də maraq yaratmayıb". Bu sözləri Azərbaycanın keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib. "Bu gün hər kəsə bəllidir ki, həmsədrlərin səfərləri regionda baş verən proseslərə heç bir təsir göstərməyən ayinə çevrilib. Regionda ciddi nəyinsə baş verdiyi isə hər kəsə aydındır. Bu isə ilk növbədə Ermənistandakı situasiya ilə bağlıdır", - deyə o budəfəki səfərə münasibət bildirərkən qeyd edib.

*****

Məsələ də ondadır ki, hazırda sülh danışıqlarına əsas əngəl yenə Ermənistandır. Əfsus ki, işğalçı ölkənin yeni rəhbərliyi də Qərbin gözləntilərinə rəğmən, Dağlıq Qarabağla bağlı konstruktiv mövqe tutmaqdan xeyli uzaqdır. Hətta baş nazir Nikol Paşinyan məsələdə öz sələflərindən də radikal mövqe sərgiləyir. Bir səbəb onun ölkə daxilində siyasi rəqiblərdən çəkinməsidirsə, digər səbəb, əlbəttə ki, Rusiyadan ehtiyat eləməsidir. O Rusiya ki, özünü qərəzsiz vasitəçi kimi göstərməyə çalışsa da, əslində özü münaqişə tərəfidir və konfliktin həllində maraqlı deyil. Bu azmış kimi, Moskva Azərbaycan və Ermənistana silah sataraq, paralar qazanır, altdan-altdan separatçılığı körükləyir, münaqişəni sönməyə qoymur.

Yeri gəlmişkən, xəbər gəlib ki, bu həftə Moskvada "Lazarev klubu" adlı forumun keçirilməsi nəzərdə tutulub. Həmin tədbirdə Azərbaycanın işğal altındakı ərazilərindən gəlmiş separatçıların da iştirakı gözlənilir. Bununla bağlı Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovanın ənənəvi brifinqində azərbaycanlı jurnalistin ona verdiyi "bu, Rusiyanın həmsədrliyi ilə necə bira araya sığır" sualına Zaxarovanın cavabı ənənəvi olub. O, Rusiya əvəzinə, azərbaycanlı jurnalisti qərəzdə suçlayıb.

Sitat: "Rusiyanın həmsədrliyinin buna nə dəxli var? Bu məsələləri sualınızda necə uzlaşdırırsınız? Şübhəsiz ki, Rusiya ATƏT-in Minsk Qrupunun həmsədridir və rəsmi səviyyədə üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir. Eyni zamanda, Moskvada yüzlərlə müxtəlif mövzulu forumlar keçirilir. Əgər sizdə məlumat varsa ki, burada hansısa tərzdə rəsmi şəxslər iştirak edir, mənə məlumatı təqdim edin, aydınlaşdıraram. Məndə belə məlumat yoxdur", - Zaxarova bildirib.

Rusiya XİN-in rəsmi nümayəndəsi onu da əlavə edib ki, "qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti tərəfindən tədbirlərin təşkil etməsi Rusiyanın mövcud qanunvericiliyində təsbit olunmuş məsələdir".

Mariya Zaxarova təbii ki, yenə blef edir. Hamı bilir ki, Rusiya demokratik dövlət deyil, burada Kremlin rüsxəti və xəbəri olmadan belə siyasi tədbirlər baş tutmur. QHT-lər də Moskvanın nəzarətindədir - o ki ola Kremlə yaxın deputatların və ekspertlərin təzəcə formalaşdırıdığı və separatizmə, işğalçı Ermənistana dəstəyi hədəf götürmüş, Qarabağ ixtilafının uzanmasına xidmət edən "Lazerev klubu". Bu, həm də o anlama gəlir ki, Rusiya Qarabağ "düyünü"nə yeni "düyün" vurmaq istəyir və Qərbin Dağlıq Qarabağ məsələsində aktivləşməsindən mənun deyil.

*****

O ki qaldı həmsədrlərin bu dəfə separatçı bölgəyə, Xankəndinə getməməsinə, gözlənildiyi kimi, bu, işğalçı və separatçı tərəfdə məyusluq və narahatlıq doğurub. Lakin düşmən tərəfin təmsilçiləri bunu büruzə verməməyə çalışaraq bildiriblər ki, guya vasitəçilər Azərbaycan və Ermənistan liderlərinin görüşünü hazırladıqları üçün Xankəndinə gəlməyə lüzum görməyiblər.

Ancaq bu iddia əsassızdır. Ən azı, ona görə ki, Azərbaycan və Ermənistan XİN başçılarının Münhen görüşü İrəvanın və Moskvanın günahı üzündən baş tutmadıqdan sonra belə bir görüşün hazırlanmasının anlamı qalmayıb.

"Əlbəttə, bizim üçün həmsədrlərin Qarabağa səfəri və Stepanakertin (Xandkəndi - red.) mövqeyini öyrənməsi çox mühümdür. Bu haradasa Qarabağın danışıqlarda iştirakı anlamına gələ bilər". "Yeni Müsavat"ın məlumatına görə, bunu 1 in.am saytına açıqlamasında erməni politoloq Qarik Keryan deyib.

"Doğrudur, Qarabağ danışıq masası arxasında yoxdur, ancaq həmsədrlərin Qarabağa gəlməsi, Bako Saakyanla görüşməsi, məsələləri müzakirə eləməsi və oradan sərhəd bölgəsinə yollanması, orada Qarabağ "hakimiyyəti"nin iştirakı ilə monitorinq aparması, şüuraltı belə təəssürat yaradırdı ki, Qarabağ prosesdə birbaşa olmasa da, ikinci planda iştirak edir. Çox yaxşı olardı ki, onlar gələydilər. Ancaq niyə gəlmədilər, mən buna cavab verməyə çətinlik çəkirəm. Ola bilsin, indiki mərhələdə Qarabağ "hökuməti" ilə müzakirə ediləcək məsələlərin dairəsi mövcud deyil", - deyə erməni politoloq bildirib.

*****

İstənilən halda, atəşkəs rejiminin süni şəkildə uzanmasında maraqlı olmayana Azərbaycan ilk növbədə özünün hərbi və döyüş potensialını artırmağa işğalçı ölkə üzərində əzici hərbi üstünlüyü daha da böyütməyə xüsusi diqqət verib və verəcək. Bunu xarici hərbi ekspertlər də etiraf edirlər.

"Azərbaycan prezidenti İlham Əliyev ordunun bütün istiqamətlərdə güclənməsinə və müasir silahlarla təchiz edilməsinə nail olub. Bu gün Azərbaycan Ordusu ən güclü orduları sırasındadır". Bunu Rusiyadakı "Milli Müdafiə" jurnalının baş redaktoru, hərbi ekspert İqor Karatçenko deyib ("Report").

Onun fikrincə, Azərbaycan özünün hərbi potensialının artırılmasına və inkişafına xüsusi önəm verir: "Bu gün Azərbaycanın hədəfi öz ordusunu yüksək dəqiqlikli silahlarla təchiz etmək istiqamətindəndir. Təbii ki, bura hava hücumundan müdafiə sistemləri də daxildir. Azərbaycan Rusiyadan da böyük partiyada hərbi texnika alan ölkələr sırasındadır və o, Bakı yeni və müasir silahlar almaqla ordusunu XXI əsrin ordusuna çevirib".

Hərbi ekspert Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini vurğulayaraq deyib: "Qarabağ münaqişəsinin hər an alovlanacağını nəzərə alaraq rəsmi Bakının Rusiya ilə hərbi əməkdaşlığa xüsusi önəm verdiyini deyə bilərik. Ancaq bununla belə, konfliktin sülh yolu ilə həll olunacağına, müharibəyə ehtiyac qalmayacağına ümid edirəm. Ermənistan həqiqətləri anlamalı və görməlidir. Beynəlxalq hüquq normalarına əsasən, Azərbaycanın 7 rayonu və Dağlıq Qarabağ işğal altındadır. Hüquqi olaraq bu torpaqlar Azərbaycana məxsusdur. İlk növbədə 5 rayon Azərbaycana qaytarılmalıdır. Ermənistanda bu ssenari üzrə irəli getmək üçün sağlam düşüncə lazımdır", - deyə Karatçenko əlavə edib.



# Hərbçilərimiz Qarsda yüksək peşəkarlıq nümayiş etdirdilər

**Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Türkiyə Respublikasının Qars şəhərində keçirilən beynəlxalq "Qış təlimi-2019"da ölkəmizi layiqincə təmsil ediblər. Əlahiddə Ümumqoşun Ordunun mətbuat xidmətindən bildirilib ki, Türkiyə Respublikasının Qars şəhərində beynəlxalq "Qış təlimi-2019" çərçivəsində Türkiyənin müdafiə naziri Hulusi Akar və digər ölkələrin təmsilçilərinin yer aldığı Yüksək səviyyəli qonaqlar günü keçirilib.**

Təlimin yekun mərhələsinin keçirildiyi Yüksək səviyyəli qonaqlar günündə Əlahiddə Ümumqoşun Ordu komandanı general-leytenant Kərəm Mustafayev də iştirak edib. Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları çətin relyefli ərazilərdə, qarlı, şaxtalı havalarda döyüş əməliyyatlarının aparılması tapşırıqlarını uğurla yerinə yetirərək, digər ölkələrin bölmələri ilə qarşılıqlı əlaqədə döyüş atışlarını icra ediblər. Beynəlxalq hərbi təlimdə iştirak edən hərbi qulluqçularımız xidmət yerlərində təntənəli mərasimlə qarşılanıblar. Mərasimdə Əlahiddə Ümumqoşun Ordu komandanının müavini general-mayor Teymur Eyyubov, Türkiyə Silahlı Qüvvələrinin hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi, polkovnik Yusif Gündoğdu və təlimdə iştirak edən polkovnik Tehran Mənsimov çıxış ediblər. Bildirilib ki, təlimin bütün mərhələlərində şəxsi heyətin yüksək peşəkarlıq nümayiş etdirməsi hərbi qulluqçularımızın malik olduğu bilik və bacarıqdan, vətənpərvərlik hisslərindən xəbər verir. Ümumilikdə, 16 ölkənin hərbi qulluqçularının müşahidəçi və iştirakçı qismində cəlb edildiyi təlimdə Azərbaycan və Türkiyə hərbçiləri həmişə olduğu kimi, bu dəfə də yüksək peşəkarlıq nümayiş etdiriblər.

YENİ MÜSAVAT
N 44 (7214) 25 fevral 2019

**Amerika Birləşmiş Ştatlarının hər iki partiyasını təmsil edən senatorlar Rusiyaya yeni sanksiyalar nəzərdə tutan qanun layihəsi hazırlayıblar. Bu sanksiyalar Rusiyanın ABŞ-da seçkilərə iddia olunan müdaxiləsi, Ukraynaya təcavüzünə görə tətbiq olunacaq. Layihə müəlliflərindən biri, respublikaçı senator Lindsey Qraham sənədi "cəhənnəmdən gələn sanksiya layihəsi" adlandırıb.**

# Rusiya üçün cəhənnəm sanksiyaları: Azərbaycana təsiri varmı?

## Elxan Şahinoğlu: "Sanksiyalar Rusiya iqtisadiyyatını getdikcə taqətdən salır"



Rəsmi adı Amerikanın Təhlükəsizliyini Kremlin Təcavüzündən Qoruma Aktı 2019 (DASKA) olan layihə elə açıqlanan kimi Rusiyanın maliyyə bazarlarında şok yaradıb. Bu layihəni Konqres hələ ki, nəzərdən keçirməyib. Yada salaq ki, ötən il bu layihənin daha kəskin versiyası qəbul olunmadı.

DASKA şübhəli kiber fəaliyyət, korrupsiya, Rusiyadan kənarda bu ölkənin mayeləşdirilmiş təbii qaz ixracı obyektlərinə, Rusiyadan kənarda enerji layihələrinə investisiyalara görə Prezident Donald Trampa sanksiya tətbiq etmək hüququ verir. Yayılan məlumatlarda bildirilir ki, Rusiyada neft layihələrinə gəlincə, DASKA çərçivəsində Rusiyaya mal, xidmət, texnologiya satan, maliyyə, yaxud digər dəstək göstərən şəxsə sanksiya qoyula bilər. Demokratik proseslərə, yaxud seçkilərə müdaxiləni dəstəkləyən Rusiya maliyyə qurumları sanksiyayla üzləşəcək. Bundan başqa, sosial media şirkətləri platformalarında Rusiya hökuməti, yaxud digər hökumətlərin sponsorluğu ilə dezinformasiya yaymamasını təmin etməlidirlər.

Bütün bunların fonunda isə Rusiyada "qlobal internet şəbəkəsindən imtina edib, öz şəbəkəmizi yaradaq" kimi fikirlər səslənməyə başlayıb.

Bəs bu kimi sanksiyalardan Azərbaycan da zərər çəkə bilərmi? "Yeni Müsavat"a danışan politoloq Elxan Şahinoğlu bildirdi ki, bundan sonra əlavə sanksiyaların da olacağı mümkündür: "Birləşmiş ştatlar Rusiyanı sıxışdırmaqda davam edir və hesab edirəm ki, bundan sonra başqa sanksiyalar da ola bilər. Bank hesabları dondurulur, əməkdaşlıq minimuma endirilir. Bütün bu addımlar ona görə atılır ki, Rusiya zəifləsin. Ona görə Rusiya zəiflədilir ki, bu ölkənin xarici siyasəti regionlara çoxlu təhlükələr vəd edir. Bu təhlükələrin qarşısını isə ABŞ bir supergüc olaraq almağa çalışır. 2008-ci il Gürcüstan savaşı, 2013-14-cü illərdə Rusiyanın Ukraynaya müdaxiləsi, Krımın ilhaqı, Donbas separatçılarına verilən dəstək, eləcə də Rusiyanın Suriyadakı fəaliyyəti ABŞ-ı ciddi narahat edir. Sanksiyaların ilk illərində Rusiya rəsmiləri deyirdilər ki, guya bu, Rusiyaya heç bir təsir etmir. Ancaq son zamanlar bəzi rusiyalı rəsmilər də etiraf edirlər ki, sanksiyalar Rusiyaya ciddi təsir göstərir və getdikcə də iqtisadiyyatı taqətdən salır. Amerikanın da məqsədi elə budur ki, iqtisadiyyatı zəiflətməklə Rusiyanı sıradan çıxarsın. Necə ki, vaxtilə SSRİ-ni dağıtdılar, indi də oxşar siyasət aparırlar ki, Rusiya bölgəyə və dünyaya təhlükə yaratmasın. Bu siyasət hesab edirəm ki, hələ bir müddət də davam edəcək".

Politoloqa görə, Azərbaycan balanslaşdırılmış xarici siyasət yürüdür və bu kimi hallarda özünü qoruyur, Rusiya, Türkiyə, ABŞ, İranla da yaxşı münasibətləri qurmağa çalışır: "Amma açıq şəkildə demək lazımdır ki, bu siyasəti yürütmək də getdikcə çətinləşir. Böyük dövlətlər bəzən bizdən seçim etməyi tələb edirlər. Aydındır ki, biz seçim edə bilmərik. Amerikaya görə Rusiya ilə, ruslar istəyir deyə Amerika ilə münasibətləri gərginləşdirmərik. Onu da deyim ki, Amerika ilə Rusiyanın Azərbaycana qarşı siyasətində bir fərq də var. Amerika bizim durumumuzu anlayır və bilir ki, biz Rusiya və İranla qonşuyuq. Ona görə də məcburuq ki, təhlükələr olmasına baxmayaraq, hər iki ölkə ilə münasibətləri qoruyaq. Rusiyada isə biz Amerika ilə münasibətlər quranda hiss olunur ki, müəyyən narazılıqlar yaşanır. Fikir verin ki, son zamanlar Rusiyanın Ermənistana da hərbi dəstəyi artıb. Aydındır ki, bu siyasətin müəyyən qədər yan təsirləri var. Ancasq yan təsirləri var deyə, xarici siyasətimizdən imtina edə bilmərik".

E. Şahinoğlu bildirib ki, Rusiyada hazırda bəzi adamlar absurd fikirlər səsləndirirlər: "İnternetdən imtina etmək, sosial şəbəkə yaratmaq kimi bəzi adamlar ağıllarına gələni danışır. Bunu demək asandır, reallaşdırmaq isə çətin. Çin Rusiyadan daha qüdrətli dövlətdir, ancaq bu məsələni yoluna qoya bilmir. Çünki qlobal sosial şəbəkələr hər zaman ölkələri siyasi daxili vəziyyətə ciddi təsirlər edir. Bunu Rusiyada bir neçə dəfə etməyə çalışıblar. İstəyiblər ki, özlərinin sosial şəbəkələrini yaratsınlar. Lakin alınmadı. Bəllidir ki, bu addımı atmaq çox çətindir. Əgər Rusiya belə bir addım atarsa, bu, yeni bir "soyuq müharibə"nin başlaması deməkdir. Onsuz da hazırda "soyuq müharibə" gedir. Ancaq əgər qeyd etdiyimiz addım da atılarsa, bütün iplər qopacaq. Əslində Rusiyada belə bir fikir də var ki, Amerika ilə münasibətlər gərgin olmasına rəğmən, Avropa ilə münasibətləri normal saxlamağa çalışırlar. Lakin Rusiyanın siyasətində heç bu da hər zaman alınmır. Çünki Avropa da Amerikadan müəyyən mənada asılıdır. Nəticədə bu tərəfdən də problem olur".

İnternet sahəsi üzrə mütəxəssislər də bildirdilər ki, Rusiyanın qlobal internet şəbəkəsindən imtina etməsi məsələsi sadəcə olaraq gülüncdür. Ekspertlər bildirdilər ki, bu, indiki dövrdə mümkün deyil. Dünyanı tor kimi saran şəbəkədən kənarda qalmaq dünyadan təcrid olmaq kimi bir şeydir...

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Daha iki ölkə Amerikanın hədəfində - "demokratiya oyunu" davam edir



## Politoloq: "ABŞ bu gün də öz ənənəsinə sadiqlik nümayiş etdirir"

**ABŞ təkcə Venesuelada yox, Nikaraqua və Kubada da hakimiyyəti dəyişmək istəyərdi. Bu haqda ABŞ dövlət katibi Mayk Pompeo bildirib. "Etiraf edirik ki, bu ölkələrin hökumətləri öz xalqına qan uddurur, real təhdidlər yaradır: ümumilikdə təhlükəsizliyə və ayrı-ayrı fərdlərə təhdid yaradırlar, insanları təməl azadlıqlardan məhrum edirlər" - amerikalı baş diplomat bildirib.**

Pompeo qeyd edib ki, Tramp administrasiyası təkcə Venesuelada yox, qeyd olunan iki ölkədə də müsbət dəyişikliklərin əldə olunması üzərində çalışır. Görünən odur ki, ABŞ demokratiya və insan haqları pərdəsi altında növbəti qurbanlarını axtarır. İndiyə qədər Birləşmiş Ştatların "demokratiya oyunu"nun bir sıra ölkələrdə hansı fəsadlar törətdiyi göz önündədir.

Beynəlxalq münasibətlər üzrə mütəxəssis Nəzakət Məmmədova "Yeni Müsavat"da məsələyə maraqlı şərh verdi: "Sirr deyil ki, ABŞ öz qlobal siyasətində təkcə diplomatiyaya - inandırmaya deyil, eyni zamanda güc vasitələrinə - məcburetməyə üstünlük verir. Bu icbari vasitələrdən biri ABŞ-ın həyati maraq zonası hesab etdiyi xarici dövlətlərdə hakimiyyətlərin güc, silahlı çevriliş yolu ilə devrilməsidir. Bu, şübhəsiz ki, ABŞ xarici siyasətində qərarvermə səlahiyyəti olan mərkəzlərin birgə təşəbbüsü və səyləri ilə həyata keçirilir. Ağ Ev, Konqres, Pentaqon, Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ), Dövlət Departamenti burada əsas iştirakçılar hesab olunur. Bu səlahiyyət həmin təşkilatların rəsmi və qeyri-rəsmi təlimatlarında qanuni şəkildə öz əksini tapıb. Məsələn, MKİ-nin əsas vəzifəsi bunlardan ibarətdir: Xarici dövlətlərin fəaliyyəti haqda kəşfiyyat və əks-kəşfiyyat məlumatlarının əldə edilməsi və təhlil olunması, ABŞ-ın təhlükəsizliyinin təmin olunması üçün siyasi, iqtisadi, elmi, texniki, hərbi, sosioloji və digər məlumatların toplanılması üçün proqramların işlənib-hazırlanması və həyata keçirilməsi, ABŞ-ın hüdudlarından kənarda əks-kəşfiyyat fəaliyyətinin həyata keçirilməsi və əlaqələndirilməsi, ABŞ prezidenti tərəfindən təsdiq edilmiş xüsusi proqramların həyata keçirilməsi, həmin xüsusi proqramların həyata keçirilməsi, həmin xüsusi proqramların təhlükəsizliyinin təmin olunması, MKİ Baş İdarələrinin təhlükəsizliyinin məxfilik rejiminin və əməkdaşların təhlükəsizliyinin təmin olunması. Məlum olduğu kimi 1930-cu illərdə ABŞ prezidenti F. Ruzvelt ABŞ daxilində Federal Təhqiqatlar Bürosunun məxfi əməliyyatlarına sanksiya vermişdi. H. Trumen isə 1947-ci ildə MKİ-nin bütün dünyada gizli əməliyyatlar həyata keçirməsinə dair məxfi direktiv imzalamışdı. Direktiv cəmi üç nüsxədə çap edilmişdi: Ağ Ev, Dövlət Departamenti və MKİ direktoru kontr-admiral Rosko Q. Hillenkoter üçün. Tezliklə gizli əməliyyatların həyata keçirilmə mexanizmi işlənib-hazırlandı. Milli Təhlükəsizlik Şurası belə əməliyyatların keçirilməsini o vaxt tövsiyə edirdi ki, ABŞ xarici siyasətinin bu və ya digər məqsədini həyata keçirmək diplomatiya vasitələri yolu ilə mümkün deyildi, hərbi aksiya isə həddən artıq riskli idi.

İlk zamanlar MKİ-nin məxfi aksiyalarını həyata keçirmək üçün MKİ daxilində Xüsusi Əməliyyatlar İdarəsi yaradılsa da, 1948-ci ilin sentyabr ayında Dövlət Departamenti daxilində analoji struktur - Siyasətin Koordinasiyası İdarəsi (SKİ) yaradıldı. Tezliklə iki struktur arasında rəqabət başlandı. 1955-ci ildə MKİ dünyanın qırx səkkiz ölkəsində məxfi əməliyyatlar həyata keçirmişdir. Lakin əməliyyatlar heç də hər zaman uğurlu hesab olunmur. 1952-ci ildə MKİ agentləri Misir kralı Fərruxu devirərək keçmiş Abver agenti və gələcək Sovet İttifaqı Qəhrəmanı Camal Əbdül Nasiri hakimiyyətə gətirdilər. Sonralar MKİ rəhbərliyi bu qərarına görə çox təəssüflənmişdir. Ermənistanda Paşinyanın son zamanlar Rusiya və İrana münasibətdə yaxınlaşma məqsədilə həyata keçirdiyi bəzi addımlar da MKİ-ni məyus edə bilər. 1953-cü ildə H.Trumeni ABŞ prezidenti vəzifəsində əvəz edən D. Eyzenhauer "1 Nəli casus" adlandırılan Allen Dallesi MKİ-nin rəhbəri təyin etdi. O, bu vəzifəni tutan ilk mülki şəxs idi. O, direktor olduğu doqquz il ərzində MKİ-ni "soyuq müharibə"də ABŞ-ın əsas silahına çevirdi. Məhz A.Dallesin dövründə MKİ-nin əməliyyatları qlobal xarakter daşımağa başladı. Məsələn, faşist kəşfiyyatının keçmiş rəhbərlərindən biri Reynhard Qeleni konfidensial əməkdaşlığa cəlb etmək, "Azadlıq" və "Azad Avropa" kimi qondarma təşkilatlar yaratmaq, Kuba lideri Fidel Kastroya qarşı sui-qəsdlər təşkil etmək və s".

N.Məmmədova bu gün də ABŞ-ın ənənəsini davam etdirdiyini söylədi: "ABŞ bu gün də ənənəsinə "sadiqlik" nümayiş etdirir və dünyada, xüsusilə Latın Amerikası, Orta Şərq, postsovet ölkələrində silahlı çevrilişlər təşkil edir. Venesuela prezidentinin anti-Amerika mövqeyi həmin ölkədə baş verən indiki hadisələrin əsas səbəbidir. Ümumiyyətlə, Venesuela Latın Amerikası ölkələri içərisində Amerikaya qarşı ən kəskin mövqedə dayanan ölkələrdəndir və ABŞ-ın Latın Amerikasına müdaxiləsini yolverilməz hesab edir. Halbuki, Monro doktrinası ABŞ-ın üfüqi yox, şaquli ekspansiyasını, yəni dünyaya deyil, məhz olduğu Amerika qitəsinə doğru genişlənməsini nəzərdə tuturdu. Venesuela OPEK üzvü olaraq ABŞ-ın diqqət mərkəzindədir və oradakı iqtidarın Amerikaya yaxın olması Vaşinqton üçün əhəmiyyətli məsələdir. Nikaraqua da həmçinin Amerikanın dövlət çevrilişi etdiyi ölkələr sırasına daxildir, Kuba isə ABŞ-ın Soyuq müharibə illərində əsas hədəfi olub. Bu gün biz Trampın Obamanın siyasətindən fərqli, daha radikal siyasət yeritməsini müşahidə edirik. İranla nüvə sazişindən çıxma, Yaxın Şərq siyasətinə fərqli baxış və s. Obama Kuba ilə yaxınlaşma siyasətinə üstünlük verirdi. Tramp isə görünür, daha radikal addım atmağa qərar verə bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 44 (7214) 25 fevral 2019



# İnfarkt "gəncləşir": qorunmaq üçün bunları etməli...

## Kardioloq: "İlk növbədə sinədə ağrı varsa, təngnəfəslik hiss edirsinizsə, həkimə müraciət edin"

**Ürək xəstəlikləri dünyada ən mühüm sağlamlıq problemlərinin önündə gəlir. Son dövrlərdə, xüsusən, gənclərin infarktdan həyatını itirməsi ciddi narahatlıq doğurur. Gənclərdə yaşanan infarkt çox hallarda ölümlə nəticələnir. Çünki yaşlılarda körpü damarlar tam formalaşdığından ani infarkt halları zamanı ürək digər damarlardan qan alaraq, qidalanmağa davam edir. Gənclərdə isə bu körpü damarlar formalaşmadığı üçün ani infarkt ölümlə nəticələnir.**

Məlumatlara görə, hər il dünyada qəfil ürək dayanmasından 18 milyon insan dünyasını dəyişir. Lakin vaxtında həkimə müraciət etməklə bu ölümün qarşısını almaq mümkündür. Bunun üçün isə xəstəliyin əlamətlərindən xəbərdar olmaq lazımdır.

"Yeni Müsavat"a danışan kardioloq, professor İdris Xəlilov bildirib ki, ilk növbədə insan ürək nahiyəsində, sinəsində hansısa ağrı hiss edirsə, həkimə müraciət etməlidir. Kardioloqun sözlərinə görə, əslində infarktın "gəncləşməsini" söyləmək olmaz: "Təngnəfəslik də ürək xəstəliyinin əlaməti sayılır. Bu, qanda oksigenin az olmasından xəbər verir. Əzələlərin işləməsi üçün oksigen tələb olunur. Onun miqdarı azaldıqda ağciyərlər qanı oksigenlə zənginləşdirmək üçün sürətlə oksigen almağa başlayır. Nəticədə də təngnəfəslik yaranır. Ümumiyyətlə, deyim ki, infarkt hər zaman olub. Yəni gənclər arasında da ürək xəstəliklərinə rast gəlinib. Bu, illər öncə də belə idi. Sadəcə olaraq, hazırda kommunikasiya ötən illərlə müqayisədə xeyli inkişaf etdiyi üçün baş verən hadisələrdən tez xəbər tutulur. Düşünürəm ki, infarktın hazırda gənclər arasında da geniş yayılmasının əsas səbəbi stressin artmasıdır. Buna başqa səbəb görmürəm".

Dünya tibbində ürəyin qəfil dayanmasının qarşısını vaxtında almaq üçün bir sıra tövsiyələr var. Bu tövsiyələrə demək olar ki, hər dildə rast gəlmək mümkündür. Onlardan bəzilərini təqdim edirik.

Belə ki, əgər sinə nahiyəsində narahatlıq varsa bu, ürəklə bağlı ola bilər. Bəziləri sinədə yüngül ağrı, bəziləri ilə sıxılma və təzyiq, digərləri isə yanğı hiss edirlər. Hər 3 halda terapevtə müraciət edərək elektrokardioqramma və USM müayinəsindən keçmək tələb olunur. Əgər ağrı çox güclüdürsə, o zaman təcili tibbi yardım çağırın. İştahanın itməsi, ürək bulanma, mədə ağrısı da ürəklə əlaqəli ola bilər. Bəzən həzm sisteminin pis fəaliyyət göstərməsinin səbəbi onların az qanla təchiz olunmasıdır. Qan təchizatının pozulması ürəyin işinin zəifləməsindən xəbər verir. Əgər ürəyiniz səbəbsiz yerə bulanırsa və sinə nahiyənizdə narahatlıq hiss edirsinizsə, o zaman mütləq həkimə müraciət edin. Bununla yanaşı, sol qola vuran ağrı da infarktla nəticələnə bilər. Çünki bildirilir ki, ürəkdən və sol qoldan çıxan sinirləri beynin eyni zonası idarə edir. Nəticədə də beyin ürəyin və ya qolun ağrıdığını ayırd edə bilmir. Əgər sizin sol qolunuz səbəbsiz yerə ağrıyırsa bu infarkt əlaməti ola bilər. Sol qolda güclü ağrılar müşahidə edilməyə başlanılan kimi bir neçə dəqiqə ərzində təcili yardıma xəbər verilməlidir. Eyni zamanda aşağı çənə və dişlərdə ağrılar zamanı da beyin ürəyin yoxsa dişlərin ağrıdığını müəyyən etməkdə çətinlik çəkir. Tibdə hətta insanların ağrıdan qurtulmaq üçün ard-arda dişlərini çəkdirmələri faktları da məlumdur. Zəif ürək qan dövranını normal yerinə yetirə bilmir. Bu səbəbdən də orqanlar və toxumalar qida maddələri və oksigen əskikliyi yaşayır. Yaşamaq üçün orqanizm az həyati əhəmiyyətə malik olan orqanlara gedən qan təchizatını azaldır. İlk növbədə yuxarı və aşağı ətraflara gedən qan ürəyə, beyinə, ağciyərlərə yönləndirilir. Buna görə də hərəkət edərkən yorğunluq hissi tez yaranır. Əgər bu hal yaşanırsa, o zaman kardioloqla müraciət edin.

Bəs ürəyi qorumaq üçün nə etmək lazımdır?

İdman hərəkətlərindən başqa, amerikalı alimlər hesab edirlər ki, ürəyi qorumaq üçün süni, lifli qidalardan uzaq olmaq lazımdır. Amerikalıların tövsiyəsinə görə, qoz, paxlalı bitkilər, zeytun yağı, brokoli, kətan toxumu, yulaf, acı şokolad, balıq ürək üçün ən faydalı qidalar hesab edilir. Ürək üçün ən xeyirli fiziki aktivlik isə üzgüçülük, qaçış və uzaq məsafələrə yerimə sayılır".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**



## Bu il turistlərin ən çox gedəcəyi ölkələr açıqlandı

**Bu il turistlər üçün ən populyar ölkələr Türkiyə, Tayland, Kipr, Yunanıstan, Vyetnam, Tunis, BƏƏ, Hindistan və Dominikan olacaq. Axar.az xəbər verir ki, bu barədə "Scanner.travel" nəşri yazıb.**

Ekspertlərin sözlərinə görə, 2019-cu ildə istirahət paketlərinin alınması zamanı onlayn-xidmətlərdən istifadə daha geniş yer tutub. Turistlərin hər hansı ölkəni seçməsinə əsas səbəblərdən biri də keyfiyyətli xidmət göstərən aviaşirkətlərdir.

# Məhbubəyə qibtə edənlər...



**Sevinc TELMANQIZI**
s.qurbanova@gmail.com

**2.4 milyon avroya bakirəliyini satışa çıxaran azərbaycanlı model xəbərinin bu qədər səs-küy yaradacağı yayıldığı ilk dəqiqədən bəlli idi. Bəli, bu sayaq söhbətlər çox müzakirə olunur, xüsusən də bizimki kimi qapalı ölkələrdə. Bakirəliyin qızlar üçün xoşbəxtlik açarı sayıldığı bizlərdə bir modelin onu auksiona çıxarması ikiqat sensasiyadır. Bəndəniz illər öncə Azərbaycanda "bakirəlik institutunun" necə çalışdığını faktlarla sübut etmişdi. Ayrı-ayrı klinikalarda bakirəliyi pozulan qızların evlilik öncəsi onu necə bərpa etdiyini öyrənmişdik. Bir klinikada 1000 manata, o birində 500 manata. Yəni inam, etibar, təmizliyin yeganə nişanəsi bu sayılırsa, əmin olun ki, onu daha kiçik pullarla bərpa etmək, qazanmaq olur.**

Amma bu xəbər və ətrafında gedən müzakirə mənə ən çox nəyi göstərdi, ondan danışım. Birincisi, istisnasız olaraq, bu xəbərlərin oxunma faizi digərlərindən iki-üç qat artıq olur. Məlum xəbəri özüm hazırlamışdım və gördüm ki, həmin gün keçirdiyim canlı yayını da (hansı ki, problemli kreditlər mövzusunda idi və bizim birbaşa canımızı yandıran məsələ idi), sosial xəbərləri də, digər müsahibələri də kölgədə qoyur. Sizə, bizə, yaşantımıza, cibimizə, həyatımızın bundan sonrakı mərhələsinə heç bir aidiyyatı olmayan, hansısa qızcığazın intim xəbəri çox rahatlıqla digərlərinin "çiyninin üstündən" basaraq birinci sıraya çıxa bilər. İkinci məqam - xəbəri oxuyub da qızı söyən xüsusən güclü cinsin nümayəndələrində sezdiyim qısqanclıq. Bir daha əmin oldum, bu məmləkətdə həmin o model Məhbubənin yerində olmaq istəyən nə qədər gənc var. Qızlı-oğlanlı. Özüm dəfələrlə müzakirələrdə, sosial şəbəkədəki statuslarda belə yanğılı yanaşmanı görmüşəm ki, bəs qadınlara sponsorlar tərəfindən ayrılan pullar niyə kişilərə ayrılmır? Niyə qadınlar bu məsələdə üstündülər, niyə onların göstərdiyi intim xidmət bu qədər bahalıdır və sair və ilaxır. Bəli, əgər bir ölkədə manıs sponsorunun ona aldığı maşınla, onun nömrəsi ilə, bahalı geyimləri ilə öyünürsə, bunu üstünlük kimi qələmə verirsə, dəyərlər sisteminin başına da çoxdan daş düşmüş olur. Bəli, dünyada və yaxın qonşularımızdakı bütün məşhur müğənnilər özlərinə bizim bir illik məvacibimiz dəyərində çanta alır, ən son model maşınlarda gəzir, evləri sarayı xatırladır... Amma onlar bizdəkilər kimi bunu adını gizli saxladıqları Rusiyadan olan iş adamının, baş hərfini açıqlayıb, "kimliyini bilsələr, əlimdən alarlar" əsası ilə tam ismini söyləmədikləri sevgililərinin, ərlərinin hesabına etmirlər. Necə deyərlər, aslanlar kimi qazanc əldə edir, vergilərini ödəyir, reklama, seriala, filmə çəkilir, kliplərinin, mahnılarının yayım haqlarından faizlərini alıb, padşah kimi dolanırlar. Bizdə dəyərlər sistemi də, şou biznes, qazanc sistemi də baş-ayaqdır ilk gündən. Ona görə də örnək olunası olaylar azdır.

Örnək demiş, daim spontan və qıcıqlı açıqlamaları ilə özünü hakimiyyətin qabağına sipər edən deputat Hadı Rəcəbli yenə könüllərimizi feyziyab etməklə məşğuldur. Məsələn, müəllim bu dəfə deyib ki, ayda 180 manatla dolanmaq olar, əgər ailədə iki nəfər işləyirsə. Hesablayırsan, vurub bölürsən, sonra çıxırsan, əldə qalan qalıq dişlərini ağardır üzünə. Üstəlik, müəllim sürəti azaltmadan əlavə edir ki, bəs mənim uşaqlarım, nəvələrim bir-birinin paltarını geyinirlər. Belə baxanda əksər ailələrdə sistem bu cürdür. Balaca uşaq böyüyün paltarlarını geyinir. Amma təkcə paltarla uşaqmı böyüyür? Olmaya istifadə edilmiş pampersləri, dərmanları, bir dəfə yeyilmiş yeməkləri, isindikləri qazı, çimdikləri suyu... da ikinci dəfə istifadənin formulasını tapıb Hadı bəy? Üstəlik, məntiq ikitərəfli fontan vurur. Məlum, deputatlar 2000 manata yaxın məvacib alır. Bu məvacib alanın ailəsində uşaqlar bir-birinin paltarını geyinib böyüyürsə, 180 manat məvacib alanın uşaqları hansı paltarı geyinməlidir?

Bu ölkədə dəyərlər baş-ayaqdır, bayaq da yazdım. Hələ də kim kimin yerində olmaq istədiyini çözə bilməyib. Halbuki hər kəs öz yerində olsa... Nə məhbubələrə həsəd aparardılar, nə də hadılar bu qədər qıcıq mənbəyi olar.

YENİ MÜSAVAT
N 44 (7214) 25 fevral 2019

# İlaxır çərşənbələr başlayır

## Sabah Su çərşənbəsidir

**Xalqımızın qədim adət-ənənəsinə görə, Novruz bayramından öncəki dörd çərşənbə xüsusi önəm daşıyır və onlar Su, Od, Yel və Torpaq çərşənbələri adı ilə qeyd edilir. Bu çərşənbələr Boz ayın çərşənbələri hesab olunur.**



Bu il fevralın 21-də Kiçik Çillə bitdi, və Boz ay başladı. Xalq inancına görə, Boz ay Novruz bayramından əvvəl bir ayı əhatə edən dövrə verilən addır. İnanca görə, birinci çərşənbə günü su və su mənbələri təzələnir və hərəkətə gəlir, ikinci çərşənbədə çatılan od yeni həyatın, baharın və istiliyin gəlişini simvolizə edir, üçüncü çərşənbədə isti və təravətli külək bütün canlılara, hər yerə nüfuz edərək yatmışlara təsir göstərir. Dördüncü çərşənbədə torpaq oyanır, otlar cücərir, ağaclar tumurcuqlayır ki, bu da baharın gəlməsindən xəbər verir.

Sabah Novruzun ilk çərşənbəsi olan Su çərşənbəsidir. Xalq arasında o, "əvvəl çərşənbə", "gözəl çərşənbə", "sular Novruzu", "gül çərşənbə" kimi də tanınır. Artıq bu həftədən su çərşənbəsi ilə Novruz bayramına hazırlıqlar başlayır.

Novruz qədim ənənələrə söykənən Azərbaycan dövlətinin milli ünsürlərini özündə birləşdirən əsas bayramlardan biridir. Novruz gəlməmişdən öncə onun ilk carçısı kimi hər həftə ocaqlar qalanır. Su çərşənbəsi günü su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirilər. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, ağırlığını, xəstəliyini axar suya verirlər. İnanca görə, "təzə su", yəni səhər dan yeri sökülməmiş götürülən köpüklü ağ su min bir dərdin dərmanı sayılır. Xalqın inamına görə, Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını, bezarını ona verənlər il boyu xəstəlikdən uzaq olarlar. Həmin gün su üstündə müxtəlif mərasimlər keçirilir. Su çərşənbəsində masa üzərinə su qoymaq, masada suyun aşması xeyirliyə yozulur. Əgər süfrənizdə su aşıb tökülərsə, həmin ilin sizin üçün bol bərəkət gətirəcəyi gözlənilir. Su çərşənbəsi ilə əlaqədar çoxlu sayda inanclar, fallar, türkəçarələr, bayatılar, əfsanələr və rəvayətlər var.

Qeyd edək ki, növbəti çərşənbə od çərşənbəsidir və bu il martın 5-ə təsadüf edir. İlin axır çərşənbələrindən ikincisi, xalq arasında "xəbərçi çərşənbə", "üskü çərşənbə", "addı çərşənbə" kimi tanınan məhz Od çərşənbəsidir. Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar.

Üçüncü çərşənbə Yel çərşənbəsidir. Yel çərşənbəsi günündə isə əsən isti küləklər yazın gəlişindən xəbər verir. Xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə" kimi tanınan Yel çərşənbəsi ilaxır çərşənbələrin üçüncüsüdür. İnama görə bu çərşənbədə oyanan yel, külək oyanmış suyu, odu hərəkətə gətirir.

Novruz bayramı öncəsi qeyd edilən ilaxır çərşənbə isə torpaq çərşənbəsidir. Torpaq insan yaradılışının əsas maddi əsası olmaq etibarilə bu prosesdə son dərəcə əhəmiyyətli bir mövqeyə malikdir. Torpaq çərşənbəsi torpağın oyanmasının mifik kökləri etibarilə dirilmə, canlanma anlayışı ilə əlaqədardır. Axır çərşənbədə tonqal qalanması, plov dəmlənməsi, səməni, xonça, qapı pusma, şam yandırma, bayramlaşma, fala baxma və bir çox adət-ənənələr var.

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Bakıda gənc ana 2 azyaşlı övladı ilə itkin düşdü

**Bakının Suraxanı rayonunda qadın iki azyaşlı övladı ilə itkin düşüb. Daxili İşlər Nazirliyindən ONA-ya verilən məlumata görə, Yeni Suraxanı qəsəbəsi, ev 45-də yaşayan 1995-ci il təvəllüdlü Bağırova Raziyyə Fəxrəddin qızı, övladları - 2015-ci il təvəllüdlü Bağırova Mövlanə Elvin qızı, 2017-ci il təvəllüdlü Bağırov Səccad Elvin oğlu ilə birlikdə fevralın 20-də evdən çıxıblar və qayıtmayıblar.**

Faktla bağlı araşdırmalara başlanıb.

# Azərbaycanda qohum evliliyi qadağan edilə bilər

**Qohum evliliklərinin tibbi baxımdan zərərli olması və irsi-genetik xəstəliklərin artmasına yol açması uzun müddətdir müzakirə olunur. Xüsusən Şərq ölkələrində bu hallar daha çoxdur. Bu baxımdan Özbəkistanda yaxın qohumlar arasında nikah bağlanmasını qadağan edən qanun layihəsi hazırlanması diqqət çəkir.**



Belə ki, ölkənin Səhiyyə Nazirliyi Ailə Məcəlləsinə dəyişiklik etmək haqqında qanun layihəsini müzakirəyə çıxarıb. Qanun layihəsinin 16-cı maddəsində dəyişiklik etmək nəzərdə tutulur. Yeni dəyişikliyə əsasən qardaş və bacıların övladlarının evlənməsi qadağan olunur. Hazırda doğma və ögey bacı-qardaşlar, övladlığa götürülən uşaqlarla valideynlər arasında nikaha yol verilmir. Müzakirələr martın 9-dək davam edəcək. Özbəkistanda nikah yaşı kişilər üçün 18, qadınlar üçün isə 17 yaş müəyyən edilib.



**Vaqif Qarayev:** "Ailə tanıyıram ki, qan qohumu ilə evlənib, 4 uşağın 4-də də əqli və fiziki qüsur var"



**Fazil Mustafa:** "İnsanlar bunu şüurla etmirlərsə, qanunla qadağan etməkdən başqa yolu yoxdur"

### Bəs görəsən, bənzər qanun Azərbaycanda da qəbul edilə bilərmi?

Milli Məclisin deputatı Fazil Mustafa "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, belə bir qanunun qəbul edilməsi arzuolunandır: "Azərbaycanda da bu məsələdə kifayət qədər cahillik elementləri var. Çox vaxt doğulan uşaqlarının irsi xəstəliklərə məruz qalmasının da səbəbi məhz qohum evlilikləri ilə bağlıdır. Bunu aradan qaldırmaq bir qədər çətinləşib. Ona görə də qanunla qadağan olunması daha doğru olardı. İnsanlar bunu şüurla etmirlərsə, qanunla qadağan etməkdən başqa yolu yoxdur. O baxımdan bu çox faydalı qanundur, mən də bunun tərəfdarıyam, hesab edirəm ki, burada qanunun müddəaları kifayət qədər ciddi şəkildə müəyyən olunmalıdır. Elə etmək lazımdır ki, yaxın qohumların, yəni qardaş və bacı uşaqlarının qanuni şəkildə nikaha girmək imkanları aradan qalxsın. Buna görə də valideynlər çalışmalıdırlar ki, övladları seçim edərkən, ailə qurarkən qohum evlilikləri məsələsinə həssas yanaşsınlar. Burada qohumların kateqoriyası da dəqiq göstərilməlidir. Özbəkistan da bizim kimi bir qədər feodal təfəkkürünü qoruyan cəmiyyətdir. Çox güman ki, bu problemin qarşısını maarifçiliklə, mədəni çağırışlarla almağın mümkün olmadığını görüblər, nəticədə bu yola əl atıblar. Ümid edək ki, bizdə də belə bir qanun olar və bu yalnız ümumi işin faydasına ola bilər. Belə bir qanun müzakirəyə çıxarılarsa, mən də deputat kimi ona səs verərəm, hətta faydalarından da bəhs edərəm. Bizim kimi cəmiyyətlər üçün başqa formada qohum evliliklərini aradan qaldırmaq mümkün deyil. İnsanlar ən azından qanundan qorxaraq bu addımı atmaqdan çəkinə bilərlər".

Tanınmış pediatr Vaqif Qarayev də qəzetimizə açıqlamasında vurğuladı ki, təbabət qohum evliliyini inkar edir: "Təkcə əmiqızı, əmioğlu yox, lap uzaq qohumların da evlənməsi arzuolunmazdır. Çünki xromosom kodunda eynilik var, indi olmasa da gələcək nəsillərdə dəyişiklik ehtimalı həddindən artıq çoxdur. Ona görə də, bizdə irsi genetik xəstəliklər çoxalıb. Bu problem təkcə bizdə deyil, yəhudilərin də müəyyən bir qolu var ki, onlarda da yaxın qohumla evlənirlər. Ancaq dünya miqyasında müsəlman arealında qohum evlilikləri daha çoxdur, ən çox isə ərəb ölkələrindədir. Azərbaycanın çox böyük bir kəndində beynəlxalq təşkilat qohum evliliklərinin monitorinqini aparıb, hesabatda ortaya çıxıb ki, əksəriyyəti qohumu ilə evlənib. Bizdə adətən bunu dinlə bağlayırlar ki, peyğəmbərimiz də qohumu ilə evlənib. Ancaq düzgün yanaşma deyil. Mən elə bir ailə tanıyıram ki, yaxın qan qohumu ilə evlənib, 4 uşağın 4-də də əqli və fiziki qüsur var. Soruşuram ki, bunların ikisi xəstə doğuldu, digərlərini niyə müayinələr aparmadan dünyaya gətirirsiniz? Cahillikdir və deyirlər ki, Allahın verdiyi paydır. Bu gün də bu yanaşma var. İstənilən xəstəliyin öhdəsindən gəlmək olar, ancaq irsi-genetik xəstəliklərə təbabət heç nə edə bilmir. Qohum evliliklərində irsi xəstəliklərin olması ehtimalı çoxdur, insanlar bunu anlamalıdırlar. Bəlkə də cahillik dövründə bunun izahı var idi. Ancaq maraqlıdır ki, indi təhsili olan insanlar da var ki, övladını yaxın qan qohumu ilə evləndirir".

Pediatr qeyd etdi ki, məhz bu səbəbdən irsi-genetik xəstəliklər sürətlə artır, Azərbaycanda ən çox yayılan talassemiyadır: "Autizmin isə səbəbləri tam bəlli deyil, irsi-genetik faktorun da rolu var. Ancaq Avropada da autizm geniş yayılıb, hərçənd onlarda qohum evlilikləri yoxdur. Yeni doğulan uşaqlara 7 gün ərzində daban testləri olunmalıdır, orada 4 çox ağır xəstəliyin ilkin diaqnostikası aşkar olunur. Ana bətnində Daun xəstəliyinin diaqnostikası mümkündür, laborator analizlərlə, ultrasəs müayinəsi ilə təyin edirlər. Yaxın qohumların nikahından olan hamiləliklərində xromosom patologiyaları ola bilər, bəzi klinikalarda bunu təyin etmək mümkündür. Əqli və fiziki qüsur yaradan xromosomları müəyyən ütmək olur. Qohum evliliklərində genetik istiqamətdə müayinə çox vacibdir. Daun xəstəliyi hamiləliyin elə dövründə aşkarlanır ki, ana onda uşağı məhv etmək və ya dünyaya gətirməklə bağlı seçim qarşısında qalır. İndi bir humanist yanaşma var. Çünki Daunla doğulan uşaqlar arasında kifayət qədər intellektli olanlar da var. Ancaq valideynlər göz dağı görmək istəmirsə, yaxşı olar ki, qohum evliliklərindən uzaq olsunlar. Təbabət bunun qarşısında acizdir. Diaqnostikasında irəliləyişlər olsa da, müalicəsi ilə bağlı heç nə edə bilmirik. Talassemiya isə nikaha gedən şəxslərin qan analizi ilə müəyyən olunur. Əgər cütlükdə hər iki tərəf talassemiya daşıyıcıdırsa, artıq onların hər 4 övladından biri talassemiya xəstəsi ola bilər. Problem odur ki, bu mərhələdə artıq gənclər nikaha girir, toy ərəfəsindədir, bəzən nə çıxsa da, nikahdan imtina etmirlər. Bu xəstəliyin müalicəsi müəyyən qədər var, xəstəyə sümük iliyi köçürülür. Ancaq risk etməyin mənası yoxdur. Təbabət məsləhət görür ki, iki daşıyıcı evlənməsə yaxşıdır. Bundan başqa qohum evlilikləri ilə irsi karlıq və korluq, ürək xəstəlikləri ötürülə bilər. Epilepsiyada, ürək patologiyalarında da irsiyyətin çox böyük əhəmiyyəti var. Ona görə bir daha vurğulayıram ki, yaxın qohumla evlənmək düzgün deyil".

"Əjdərbəy" məscidinin axundu Hacı İlham Rəsulov isə "yeni Müsavat"a açıqlamasında bildirdi ki, İslam dini yaxın qan qohumları olan qardaş və bacı uşaqlarının evlənməsini qadağan etmir: "İslam birinci imamı olan Həzrəti Əli əmisioğlu Məhəmməd peyğəmbərin (ə. s.) qızı ilə evli idi. Yəni din köklü şəkildə bunu qadağan etmir. Lakin müasir tibb bunun zərərini müəyyən edibsə , o zaman din də buna yol verilməməsinin tərəfindədir. Yaxı olar ki, yad insanlar ailə qursunlar."

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 44 (7214) 25 fevral 2019

# Az stress, bol məhsuldarlıq - dünya 4 günlük iş rejiminə keçir

## Azərbaycanda da Yeni Zelandiyanın təcrübəsi tətbiq edilə bilərmi?

**Yeni Zelandiyada işçilərin dördgünlük iş rejimi ilə bağlı araşdırma keçirilib. 2018-ci ilin noyabrında Yeni Zelandiyanın "Perpetual Guardian" kampaniyası dünyada dördgünlük iş rejiminə keçən ilk şirkət olub. "Yeni Müsavat" bu araşdırmanın nəticələri və onun gətirmiş olduğu bəzi sonucları diqqətə çatdırır. Bununla da onlar həftəlik iş saatlarını s 37,5-dən 30-a qədər azaldıblar.**

Bu, Oklend Texniki Universitetinin keçirdiyi eksperimentin nəticələri əsasında həyata keçirilib. Dördgünlük iş rejimi ilə bağlı həyata keçirilən ən irihəcmli təcrübə heç də yaradıcılığın miqyasını, məhsuldarlığın həcmini azaltmayıb. Bu, konkret rəqəmlərdə özünü əks etdirib. Nəzərə almaq lazımdır ki, biznes kampaniya öz fəaliyyətini dəyişikliksiz həyata keçirir, bu formada davam edir. Beşgünlük iş rejimində həyata keçirilən işin rejimi dördgünlük rejimdə də davam edib. Bununla paralel, personalın stressinin azalması və məhsuldarlığının artması, əhvalının yüksəlməsi özünü göstərib.

İş və şəxsi iş arasındakı balans bir çox müasir ofis işçiləri arasında ciddi problemə çevrilib. Məsələn, Amerikada məzuniyyət hətta qanunvericilikdə də sərt şəkildə öz əksini tapmayıb. Nəticədə insanlar il uzunu iki iş yerində çalışırlar ki, bu da həftədə 80-90 saat işləmək deməkdir. İnsanlar depressiyadan əziyyət çəkir, həyat isə karyera çərçivəsində günlərini keçirirlər. Yeni Zelandiyadakı eksperiment bu istiqamətdəki ümidləri artırır ki, problemi hansısa formada həll etmək mümkündür.

2018-ci ilin noyabrında "Perpetual Guardian" maliyyə kampaniyası tam məvacibi saxlamaq şərtilə 240 əməkdaşını beşgünlük iş rejimindən dördgünlük iş rejiminə keçirib. Daha öncə həyata keçirilmiş o qədər də böyük olmayan eksperimentin nəticələri bu dəfə də eynən təkrarlanıb. Belə ki, işçilərin iş keyfiyyəti proporsional olaraq artıb. Buna müvafiq olaraq, işçilərdə hər hansı yüklənmə və yaxud iş yükündən yaranan depressiya, gərginlik müşahidə olunmayıb.

### Personalın stresi 45 faizdən 38 faizə qədər azalır və...

Xatırladaq ki, daha öncə həyata keçirilən araşdırma zamanı personalın stresi 45 faizdən 38 faizə qədər azalmışdı. Bununla paralel, iş balansının harmonik göstəriciləri 54 faizdən 78 faizə qədər artmışdı. Alimlər bir çox sahələr üzrə göstəricilərin də yüksəldiyini müşahidə etmişdilər.

Bu eksperimentdən sonra Perpetual Guardian digər kompaniyalar üçün də məsləhətlər üçün broşüra çıxardı. Bu kompaniyalar da dördgünlük iş rejiminə keçmək üçün eksperimentlər gerçəkləşdirməyi planlaşdırırdılar.







"Bu, elə bir ideyadır ki, onun həyata keçirilməsinin zamanı artıq yetişib"- bunu da "Perpetual Guardian" kampaniyasının baş direktoru Endryu Barns deyib: "Biz daha çox kompaniyanı bu işə cəlb etməliyik ki, ideya geniş yayılsın. Onlar öz kompaniyalarında məhsuldarlığın və faydalılığın artmasından məmnunluq keçirəcək və bundan iş dünyasının daha geniş sferalarda tətbiqinə rast gələcəyik".

"Perpetual Guardian" kompaniyasının səkkiz günlük bu təcrübəsini dünyanın bir çox iş adamları və siyasətçiləri diqqətlə müşahidə edirdilər. Bu təcrübənin uğuru digər iş adamlarının öz işçilərinə olan münasibətini dəyişməsinə səbəb ola bilər. Belə ki, işçilərini bütün "şirəsini" çıxarmağa həvəsli olan və bu xətti əsas tutan biznes adamları bundan belə onların daha xoşbəxt, məhsuldar olması üçün çalışmağa başlayacaqlar. Biznes bu halda işçinin daha çox işləməsindən yox, onun daha xoşbəxt olmasından qazanır.

### Hansı iş yerlərində dördgünlük rejimə keçmək olar?

Hazırda elmi araşdırmaların maliyyələşdirilməsi üzrə fəaliyyət göstərən Britaniya firması "Wellcome Trust" də baş ofisin 800 nəfərlik işçi heyətinin dördgünlük rejimə keçməsi üçün hazırlıqlara və məsləhətləşmələrə başlayıb. Bu sosial inqilabın yaradıcısı "Perpetual Guardian" isə 29 ölkədən 350 sorğu alıb. Hər kəs onlardan bu təcrübənin detalları və ideal keçidin sirlərini öyrənməyə çalışır. Ən çox sorğu Böyük Britaniyadan gəlir. Ondan sonrakı sıranı Avstraliya, Amerika və Almaniya tutur.

Böyük Britaniyada dövlət səviyyəsində dördgünlük iş rejiminin detalları, effektivliyi ilə bağlı araşdırma aparılıb. Bu nəticələr ondan xəbər verir ki, bəzi peşələrlə bağlı daim işdə olmaq, iş başında təmsil olunmaq vacibdirsə, bəzilərində iş günlərinin sayını azaltmaqla məhsuldarlığa nail olmaq mümkündür. Məsələn, satıcı, kassir, ofisiant kimi işlər iş saatlarında iş yerlərində olmağı tələb edir. Amma müxtəlif peşələrin sahibləri ofis işində çalışırlarsa, dördgünlük iş sistemi onlar üçün daha effektli ola bilər.

İlk vaxtlar əldə edilən effekt maksimal həddə olur. Bu baxımdan kimsə eyforiyaya düşməyə bilər. Amma daha sonradan pozitiv əlamətlər özünü göstərə bilər: işçilər daha yaxşı yatır, daha çox istirahət edir, işdə insanların diqqət konsentrasiyası artır, dözümlülüyün dozası da yüksəlir. Bunun hesabına məhsuldarlıq da artır. Menecerlər deyirlər ki, işçilər problemlərin həllində daha məhsuldar olublar. Onlar əvvəlki kimi mexaniki şəkildə problemlərin həlli ilə məşğul olmurlar.

Əlavə istirahət günləri işçilərin daha öncə özlərinə, ailələrinə ayırmadıqları bir çox vaxt üçün də imkanlar yaradıb. Məsələn, daha öncə vaxt tapmadıqları üçün valideynləri, uşaqları ilə vaxt keçirməyən, təhsilə vaxt ayırmayan insanlar daha sərbəstdirlər. Belə ki, onlar hətta evin geniş yer-yığışını çərşənbə günü həyata keçirib, digər üç günü tamamən özlərinə həsr edirlər.

Maraqlıdır ki, belə gözlə görünən effektli nəticələr bir təşkilatın tərkibində özünü göstəribsə, daha geniş kompaniyalarda bunun gerçəkləşməsi mümkün olsun. Axı insanlar öz şəxsi həyatlarında dəyişiklik edirlərsə, bu, bütün cəmiyyətin, ətraf mühitin dəyişməsi, daha da gözəlləşməsi deməkdir.

### Onlar iş günlərini yox, iş saatlarını ixtisar edirlər

ABŞ-da həftəlik 40 saatlıq iş rejiminin əsası Henri Ford tərəfindən qoyulub. 1922-ci il-40-ci illərində təyin edilmişdi. Lakin hazırda bu qayda dövlət işçiləri üçün keçərlidir. Belə ki, bir çox özəl şirkətlər bu göstəricini 35 saata endirib. Avropa Parlamenti həftədə 48 saat maksimum iş normasını təyin edib. Bəzi ölkələr buraya öz istisnalarını əlavə edib. Məsələn, Finlandiya belə hesab edir ki, onun vətəndaşları 40 saatdan çox yox, məhz 32 saat işləməlidir. Adətən isə avropalılar həftədə 35 saat işləyir.

Hollandiya ən qısa orta statistik iş həftəsinə - 27 saat normasına sadiqdir. Holland müəssisələri 4 günlük iş gününə keçid edir, orta işçinin iş günü isə 7 saat 30 dəqiqə təşkil edir.

İrlandiya və Fransada isə iş həftəsi 35 saatdır. Bu dünyada ən aşağı səviyyəli göstəricilərdən biri olsa da, İrlandiyada əməyin məhsuldarlığı kifayət qədər yüksək səviyyədədir. Fransada cümə günü rəsmi olaraq iş günü hesab edilsə də, bir çox şirkətlər bu günü qısaldır. Cümə günü nahar fasiləsindən sonra kimisə öz iş masasının arxasında görmək çətin məsələ olur. Keçən əsrin 90-cı illərində Fransada 35 saatlıq iş normasının tətbiq edilməsi əhali arasında narazılığa səbəb olmuşdu. Bu yaxınlarda ölkə rəhbərliyi həftəlik iş normasının artırılması məsələsinə qayıtdı və bu da çox sayda etiraz yürüşlərinin baş qaldırmasına gətirib çıxardı.

Danimarka əhalisi gün ərzində 7 saat 21 dəqiqə işləyir. Burada iş həftəsinin davamiyyət müddəti 37,5 saat tə.kil edir ki, bu da Avropada ən aşağı səviyyəli göstəricilərdən biridir. Lakin bununla belə, da-də o, 48 saatlıq həftəlik iş rejimini qısaltdı və nəticədə gündəlik 8 saatlıq iş rejimi qüvvəyə mindi. O, bununla da işçilərinə daha çox sərbəstlik vermək, onların istehlak məhsulları, eləcə də avtomobillərin satın alması ilə bağlı göstəriciləri yüksəldi. Bu nümunəni daha sonra Virgin-in sahibi və yaradıcısı Riçard Brenson davam etdirdi. Dördgünlük iş həftəsinin tərəfdarları arasında "Google" firmasının yaradıcısı Larri Peyc və amerikalı milyarder Karlos Slim də yer alır.

"CNN Money" saytı dünyada ən az həftəlik iş saatlarına malik olan ölkələri sıralayıb. Məlum olub ki, MDB ölkələri və ABŞ sakinləri həftədə 40 saat işləyir. ABŞ-da iş həftəsinin bu qaydası hələ XX əsrin nimarkalılar saatda təqribən 37,6 avro qazanır.

Almaniyada iş həftəsi 38 saat davam edir. Bundan əlavə, ölkədə mövcud olan təcrübəyə əsasən, hər hansı bir şirkətdə maliyyə problemləri yarandıqda əməkdaşların ixtisar edilməsi əvəzinə iş saatı azaldılır. Norveç sakinləri isə həftədə 39 saat çərçivəsində çalışır. Avropada ən əməksevər ölkələr Böyük Britaniya, Yunanıstan və Portuqaliyadır. Portuqaliyalılar 48, britaniyalılarla yunanlar isə həftədə 43,7 saat işləyirlər.

Asiyada insanlar daha çox zəhmət çəkir. Çində iş günü 10 saat təşkil edir və üstəlik şənbə günü də iş günü hesab edilir. Nəticədə həftədə 60 saat qaydası yaranmış olur. Çinlilərin nahar fasiləsi 20 dəqiqə, məzuniyyətləri isə ildə 10 gündür.

Yaponiyada standart iş müqaviləsində iş həftəsi 40 saat olaraq nəzərdə tutulub. Lakin yaponlar üçün karyera pilləsində irəliləməyin əhəmiyyətinin nə dərəcədə vacib olduğunu bilirik. Bu irəliləyişi isə əksər hallarda insanın iş yerində nə qədər çox zaman keçirməsi təyin edir. Bu səbəbdən də bəzi hallarda iş həftəsi 50 saata bərabər olur.

Tailand və Hindistanda da şənbə iş günü hesab edilir və işçilərin əksəriyyəti həftədə 48 saat çalışır. Dövlət müəssisələri və həmçinin Qərb şirkətlərinin ofislərində 40 saatlıq iş həftəsi qaydasına riayət edilir.

### Azərbaycan da dördgünlük iş rejiminə keçə bilərmi?

Bu sistemin Azərbaycanda tətbiq olunacağı isə şübhəlidir. Doğrudur, iş gününün azalmasına baxmayaraq faydalı iş əmsalı artar. Tutaq ki, 5 günlük iş zamanı 50 detal istehsal edən usta bunu 4 gündə edə bilir, əvəzində 3 gün istirahət edir. Bunu eksperiment kimi hansısa sahələrdə tətbiq etmək olar. Amma Azərbaycanda bu təklifin dəstəklənəcəyi gözlənilən deyil. Çünki 4 milyon yarım əmək qabiliyyətli adamdan yalnız 1 milyon yarımının əmək müqaviləsi var. Qalanları qeyri-formal əmək bazarının iştirakçılarıdır. O baxımdan da ölkəmizdə iş gününün azaldılması ilə bağlı təklifin qəbul görəcəyi inandırıcı deyil. Özəl və müqaviləsiz işçilərlə dolu sektorda bu cür iş gününün ixtisarı müsbət heç nə vəd etməyəcək.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 44 (7214) 25 fevral 2019



## Döyülən uşaq ürək və astma xəstəsi olur

**Əgər uşaq döyülərsə, gələcəkdə onda xərçəng, ürək və astma xəstəliklərinin inkişaf edəcəyi istisna edilmir. Böyük Britaniyanın Plimut Universitetinin bir qrup alimi bu fikirdədir. Ekspertlərin fikrincə, fiziki təsir və ya qışqırmaq nəticəsində yaranan güclü stress uşağı xəstəliklərə meyilli edə bilər. Həmçinin uşaqlıqda fiziki və ya seksual zorakılığa məruz qalmağın xroniki xəstəliklərə səbəb olduğunu güman etməyə əsas vardır.**

Ekspertlər Səudiyyə Ərəbistanında sağlamlığından şikayəti olmayan 250 nəfər yaşlı şəxs arasında sorğu aparıblar. Alimlər onların uşaqlıq illəri ilə maraqlanıblar. Habelə 150 ürək, 150 xərçəng və 150 astma xəstəsi arasında da sorğu aparılıb. Tədqiqatçılar könüllülərin uşaq yaşlarında nə qədər tez-tez döyülmələri və ya təhqir olunmaları ilə maraqlanıb. Məlum olub ki, xərçəng xəstəsi olan şəxs uşaqlıqda 70 faiz daha çox zorakılığa məruz qalıb. Ürək xəstəlikləri bu ehtimalın 30 faiz artımına, astma isə 60 faiz uyğun gəlib.

Universitetin Psixologiya məktəbinin professoru Maykl Hiland əmindir ki, gənc yaşda alınan belə mənəvi zədələr insanın həyatında həmişəlik iz qoyur. Beləliklə, tədqiqat döyməyin tərbiyə üsulu kimi işə yaramadığını göstərib.

## Bu balıqların insanlar kimi dişləri var

**Argentinada bir qadın çölün ortasında qəribə bir varlıqla qarşılaşıb və qorxub. Bu barədə "Daily Mail" nəşri xəbər verib. Ehtimal edilir ki, bu, lepidosiren adlı balığa bənzər varlıq olub.**



Mariya Hulia Kandotti San Havyer şəhəri yaxınlığında gördüyü bu varlığın şəklini çəkib. Qadın deyib ki, ilk dəfədir insan dişləri kimi dişi olan, qırışlı, balıqla timsahın qarışığı olan bu varlığı görüb. "Bu heyvan çay aşağı üzüb və çölə çıxıb. Biz bilmirik ki, bu, konkret hansı heyvandır. Amma bunun kimi çoxları ola bilər. Ehtiyatlı olun!" - bunu da Kandotti sosial şəbəkədə yazıb. Şərh yazanlar bu varlığın çirkin və qorxunc olduğunu bildirblər.

Pablo Skarabotti adlı alim isə bildirib ki, bu, lepidosiren adlı varlıqlar balıqların fərqli və nadir növüdür. Bu balıq həm ağciyərləri, həm də qəlsəmələri ilə nəfəs ala bilir. Onlar adətən göllərdə yaşayır: "Onlar çirkabın içində özlərinə bir qala düzəldir və orada iki-üç il boyunca yaşaya bilir. Dişləri onlar üçün çox önəmlidir - bir çox balıqları yemək, qarşılarına çıxan maneələri gəmirmək üçün".

## Sürətlə arıqlayanların başına bu iş gəlir



**Kəskin arıqlama orqanizmin hormonal fonuna çox mənfi təsir edir. Qadınlarda menstrual dövr pozula bilər və ya menstruasiyalar tamamilə kəsilə bilər. Qalxanvari vəzinin və böyrəküstü vəzilərin fəaliyyəti pozula bilər. Ürək-damar sistemində müxtəlif pozulmaların inkişafı mümkündür. Təzyiq gah qalxır, gah da düşür, ürək nahiyəsində ağrılar olur, insanı tez-tez təkrarlanan baş ağrıları və başgicəllənmələr narahat edir.**

Bundan başqa, sürətli arıqlama nəticəsində immun sistemi çox kəskin şəkildə zəifləyir. Bu səbəbdən hətta yüngül soyuqlama və ya infeksiya ağır xəstəliyin inkişafına təkan verə bilər. Həmçinin immunitetin zəifləməsi insanda olan xroniki xəstəliklərin kəskinləşməsinə səbəb ola bilər. İmmun sisteminin kəskin zəifləməsi fonunda insanda hətta xərçəng xəstəliyi inkişaf edə bilər. Sürətli arıqlama sinir sisteminin vəziyyətinə də olduqca mənfi təsir edir. İnsan əsəbi, gərgin olur, depressiyaya düşür, onun yuxusu tamamilə pozula bilər. İnsanda anoreksiya kimi ağır psixiki pozulma inkişaf edə bilər. Anoreksiyadan əziyyət çəkən insan hətta çox arıq olduqda özünü kök hesab edir, qida qəbulundan imtina edir, qida qəbul etdikdən sonra özünü zorla qusdurur və s. Ağır anoreksiya insanın ölümünə səbəb ola bilər.

## Qoroskop




**QOÇ** - Həftənin ən ideal təqvimini yaşayacaqsınız. Ən böyük uğurlarınız isə məhəbbət aləmində baş verəcək. Əgər aktivlik göstərsəniz, nahardan sonra varlana da bilərsiniz. Uzaq yola çıxmayın.

**BUĞA** - Böyük yeniliklər astanasındasınız. Bu səbəbdən də hazırkı sıxıntılarınıza görə narahat olmayın. Səbirli və ümidli olun ki, yaxınlaşmaqda olan sürprizlər sizdən yan keçməsin.

**ƏKİZLƏR** - Götür-qoy etmək limmitiniz başa çatdığı üçün konkret işə keçin. Artıq bu ərəfədə hansı perspektivlərə yiyələnəcəyinizi təyin etməlisiniz. Müttəfiqlərinizi dəqiqləşdirin.

**XƏRÇƏNG** - Hiss olunur ki, darıxdırıcı məqamlar yaşamaqdasınız. Bəzən də düşünürsünüz ki, zülmətə bürünmüş dünyamızın təklənmiş sakinisiniz. Baxışlarınızı dəyişin. Çünki yanlış fikirləşirsiniz.

**ŞİR** - Uzaq səfərə çıxmağa dəyər. Çünki Göy qübbəsi deyilən istiqamətdə bəxtinizi parlada bilər. Kosmik məkanın astroloji mənzərəsi yaxınlarınıza laqeyd qalmamağı tövsiyə edir.

**QIZ** - İstər sağlıq durumunuzda, istərsə də əməli fəaliyyətinizdə mövcud olan xoşagəlməzliklər artıq arxada qalacaq. Ona görə də qarşınızda duran öhdəliklərə layiqincə əməl edin.

**TƏRƏZİ** - Bəri başdan yadda saxlayın ki, bu təqvimdə çoxsaylı və maraqlı hadisələrlə baş-başa qalacaqsınız. İstər ailə-sevgi münasibətlərində, istərsə də fəaliyyətdə hər şey ürəyinizcə olacaq.

**ƏQRƏB** - Ay bürcünüzdə olduğu üçün fiziki işləri azaltmalı, əsas diqqəti istirahətə yönəltməlisiniz. Yaxşı olar ki, saat 14-17 arası ziyarətə gedəsiniz. Pul sövdələşmələrini isə təxirə salın.

**OXATAN** - Səhhətinizlə bağlı xırda narahatçılığınızı nəzərə almasaq, günün ümumi mənzərəsi xeyrinizə olacaq. Əlahəsus da nahardan sonra cərəyan edən olaylara görə bu təqvimdən razı qalacaqsınız.

**OĞLAQ** - Çoxsaylı görüşlərdə iştirak edəcəyinizdən xəbər verən ulduzlar hansısa xoşagəlməzliklə rastlaşma ehtimalınızı təkzib edir. Əksinə, ətrafınızda olanların hər biri ovqatınızı yüksəldəcək.

**SUTÖKƏN** - Əsas enerjinizi əməkdaşlıq istiqamətinə yönəldin. Elə taktika seçin ki, ətrafda ikrah oyatmasın. Sevgilinizlə romantik bir gəzintiyə çıxmaq, münasibətləri aydınlaşdırmaq üçün də düşərlidir.

**BALIQLAR** - Maliyyə problemləriniz artsa da, nəzərdə tutduğunuz işlərin öhdəsindən gələcəksiniz. "Hakim" bürc olduğunuzdan enerjiniz artacaq, günortadan sonra maraqlı insanlarla görüşəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Qəhvə xərçəng riskini iki dəfə azaldır



**Qərb alimlərinin qəhvə ilə bağlı kəşfləri isə yetərincə gözlənilməzdir: 40 yaşından sonra gün ərzində azı 4 fincan qəhvə içən qadınların 40%-i döş xərçənginə az tutulurlar. Əgər zərif cinsin nümayəndələri bu xəstəliyə xüsusi meyillidirsə (bəzi qadınlara BRCA1 xüsusi geni irsi keçir və xərçəngi qaçılmaz edir), sutkada 6 fincan qəhvə xərçəngin inkişaf riskini 3 dəfə azalda bilər.**

Qəhvə qaraciyərdə xərçəng riskini 2 dəfə azaldır. Dəridə və yoğun bağırsaqda, həmçinin qadınlarda yumurtalıqlarda xərçəngin inkişafına əngəl yaradır. Qəhvə diabet və Parkinson xəstəliyinin inkişafının da qarşısını alır. Bununla belə, qəhvəni birmənalı şəkildə faydalı məhsullarla çətin ki, bir sıraya qoymaq mümkün olsun. Ən kəskin mübahisələr iki problem ətrafındadır: qəhvə - ürək-damar sistemi və qəhvə - hamiləlik. Bəzən belə xəbərlər yayılır ki, qəhvə təzyiqi artırmır, ürək xəstəliklərinə şərait yaratmır, hamiləlikdə dölün düşməsi riskini çoxaltmır və s. Lakin məsələ heç də sadə deyil. Və yaxud da məsələ şəxsiyyətdədir - daha doğrusu, bu risklər hər bir şəxsin kofeinə fərdi reaksiyasından asılıdır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755